14 iyun 2024 №44 (2109) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Palçıq vulkanları mədəni və ekoloji turizm məkanına çevrilir

### Abşeron rayonu ərazisində Palçıq Vulkanları Turizm Kompleksinin açılışı olub

Prezident İlham Əliyev iyunun 13-də Abşeron rayonu ərazisində Palçıq Vulkanları Turizm Kompleksinin açılışında iştirak edib.

Azərbaycan Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev dövlətimizin başçısına kompleksdə görülmüş işlər barədə məlumat verib.

Qeyd edək ki, təbiətin maraqlı hadisəsi olan palçıq vulkanları dünyanın bir çox ölkəsində var. Azərbaycan palçıq vulkanlarının nadir və klassik inkişaf regionu kimi tanınır. Yer kürəsində məlum olan 2 mindən artıq palçıq vulkanının 350-dən çoxu Azərbaycanın şərqində və Xəzər akvatoriyasında yerləşir. Palçıq vulkanları əsasən Abşeron yarımadası, Bakı ətrafındakı adalar qrupu, Şamaxı, Qobustan və cənub-şərqi Şirvanda yayılıb. Palçıq vulkanları təbiət abidəsi kimi dövlət tərəfindən qorunur.

Palçıq Vulkanları Turizm Kompleksində "Qılınc" palçıq vulkanını yaxından izləmək mümkündür. Bu vulkanlar bir sırada düzülmüş 8 sopkadan (təpə) ibarətdir. Sopka brekçiyası (iri qrunt süxurları) böyük bir sahəni əhatə edərək şimal-şərqə qədər uzanan iki zolaq əmələ gətirib. İyirmi hektar sahəyə yayılan brekçiyanın uzunluğu 300-500 metrdir. Bu zolaqların eni isə bəzi yerlərdə 50 metrə çatır. Ümumilikdə ölkəmizdəki vulkanların 60 faizi aktiv sayılsa da, elmi mənbələrdə "Qılınc" vulkanının güclü püskürmələri barədə məlumata rast gəlinmir.



Prezident İlham Əliyevə məlumat verilib ki, Palçıq Vulkanları Turizm Kompleksi 12 hektar ərazidə tikilib. Burada inzibati bina inşa olunub. Yaradılan yeni turizm infrastrukturu yerli əhali, xüsusilə ətraf ərazilərdə məskunlaşmış insanlar üçün 60-dan çox yeni iş yerinin açılmasına imkan verib.

Kompleksin Turizm informasiya mərkəzi sərgi zalından və emalatxanadan ibarətdir. Mərkəzdə palçıq vulkanlarının xüsusiyyətləri, təbii və müalicəvi özəllikləri haqqında məlumat əldə etmək, palçıq vulkanının maketi ilə tanış olmaq mümkündür. Burada, həmçinin Azərbaycanın hər yerindən toplanmış 80-ə yaxın nadir mineral nümayiş etdirilir. Sərgidə mineral nümunələrinin adı, kimyəvi tərkibi və götürüldüyü yatağa dair məlumatlar yer alır. Emalatxanada isə dulusçuluq və neftlə rəsmlərin çəkilməsi üzrə master-klaslar təşkil ediləcək.

davamı səh. 2-də

## Daşkənddə mədəniyyət günlərimizin son konserti

Özbəkistanın paytaxtı Daşkənddə keçirilən Azərbaycan Mədəniyyəti Günlərinin bağlanış konserti olub. İyunun 13-də Muqimi adına Musiqili Dram Teatrında Azərbaycan Dövlət Rəqs Ansamblının "Mənim Azərbaycanım" adlı proqramı təqdim edilib.

Azərbaycan rəqs sənətinin ən seçkin örnəklərindən ibarət konsertdə əsl anşlaq yaşanıb. Rəqqasların yüksək peşəkarlıqla ifa etdiyi "Süita", "Qaval", "Qazağı", "Yaylıqla rəqs", "Nağara", "Şalı", "Qaytağı", "Toy", "Qılıncla rəqs", "Çayçı" və "Vətən" rəqsləri, eləcə də musiqi nömrəsi tamaşaçıların sürəkli alqışları ilə qarşılanıb.

## Rusiya sülhməramlı kontingentinin çıxarılması prosesi başa çatıb



Rusiya Federasiyası sülhməramlı kontingentinin Azərbaycan ərazisindən çıxarılması prosesi iyunun 12-də başa çatıb. Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, 2020-ci ilin 44 günlük müharibəsindən sonra Azərbaycanın Qarabağ bölgəsində müvəqqəti yerləşdirilmiş sülhməramlı kontingentin şəxsi heyəti, silah və texnikası ölkəmizi tam tərk edib.

Azərbaycanın Qarabağ bölgəsindəki Rusiya sülhməramlı kontingentinin çıxarılması bu ilin aprelində başlanmışdı. Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev aprelin 17-də bu barədə açıqlamasında diqqətə çatdırmışdı ki, sülhməramlıların vaxtından əvvəl çıxarılması barədə Azərbaycan və Rusiyanın ali rəhbərliyi tərəfindən qərar qəbul edilib. "Azərbaycan və Rusiya Müdafiə nazirlikləri həmin qərarın icrası ilə bağlı müvafiq tədbirləri həyata keçirirlər", – deyə o bildirmişdi.

## "Mezzo" telekanalında yenə Azərbaycan musiqisi yer alacaq

mezzo

Fransanın "Mezzo" telekanalı beş il ərzində Azərbaycanın görkəmli bəstəkarlarının əsərlərinin ifa edildiyi konsert layihələrini yayımlayacaq.

Mədəniyyət Nazirliyinin "Mezzo" ilə birgə həyata keçirdiyi bir neçə layihə çərçivəsində Üzeyir Hacıbəyli, Fikrət Əmirov, Qara Qarayev, Hacı Xanməmmədov, Arif Məlikov və digər görkəmli Azərbaycan bəstəkarlarının əsərləri məşhur konsert salonlarında dünyaşöhrətli solist və orkestrlər tərəfindən ifası telekanal tərəfindən lentə alınıb. Qarşıdakı illərdə həmin videoyazılar kanalda yayımlanacaq.

Bu barədə Mədəniyyət Nazirliyi və Əqli Mülkiyyət Agentliyinin Azərbaycan musiqi nümunələrinin ermənilər tərəfindən mənimsənilməsi ilə bağlı birgə bəyanatında da məlumat diqqətə çatdırılır.

Qeyd edək ki, Fransanın musiqi üzrə ixtisaslaşmış "Mezzo" telekanalı vasitəsilə bundan öncə də Azərbaycan bəstəkarlarının əsərləri yayımlanıb. O cümlədən 2018-ci ildə Qara Qarayevin, 2022-ci ildə Fikrət Əmirovun 100 illiyi münasibətilə kanalda hər iki bəstəkarın yaradıcılığına yer ayrılıb.

## "Dəlinin qeydləri" yenə festivala gedir



Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrı 24-30 iyun tarixlərində Moldovanın paytaxtı Kişineu şəhərində keçiriləcək "Mild-Fest" Beynəlxalq Teatr Festivalına qatılacaq.

Sənət ocağı festivala Azərbaycan Teatr Xadimləri İttifaqının dəstəyi ilə "Dəlinin qeydləri" monotamaşasını aparacaq.

Rus yazıçısı Nikolay Qoqolun "Bir dəlinin xatirə dəftəri" povesti əsasında Xalq artisti Cənnət Səlimovanın quruluşunda hazırlanan tamaşa 31 illik səhnə ömrünü uğurla davam etdirir. Tamaşada Əməkdar artist Şövqi Hüseynov (Poprişşin) çıxış edir.

Müxtəlif illərdə beynəlxalq festivallarda çıxış edən səhnə əsərinin quruluşçu rəssamı Lətifə Quluzadədir.

## Özbəkistan səhnəsində Azərbaycan incəsənətinin növbəti təntənəsi

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 10-14 iyun tarixlərində Özbəkistanda Azərbaycan Mədəniyyəti Günlərinin qala-konserti zəngin incəsənətimizin, musiqi sənətimizin dost və qardaş ölkədə növbəti təntənəsi oldu.

İyunun 11-də Daşkənddəki Özbəkistan Forumlar Sarayında gerçəkləşən konsertdə hər iki ölkənin mədəniyyət nazirləri Adil Kərimli və Ozodbek Nazarbekov, digər rəsmilər, tanınmış mədəniyyət və incəsənət xadimləri, 




Azərbaycan musiqisinin, rəqs sənətinin, muğamının pərəstişkarı olan yüzlərlə tamaşaçı iştirak edirdi.

Musiqi sənətimizdən öncə isə Forumlar Sarayının foyesində Azərbaycan milli şirniyyatlarının təqdimatı oldu. Hər kəs şəkərbura, badambura, paxlava və digər şirniyyat növlərinin dadına baxdı.

Sənətçilərdən əvvəl Özbəkistan Respublikası Prezidentinin Mətbuat xidmətinin rəhbəri Şirzod Asadov səhnəyə çıxaraq ölkə başçısı Şavkat Mirziyoyevin təbrik məktubunu oxudu.

Məktubda Özbəkistan və Azərbaycanın dostluq və qardaşlığından bəhs olunur, iki ölkənin mədəniyyət və incəsənətinin xalqlarımız arasında əlaqələrin möhkəmlənməsində xüsusi yer tutduğu qeyd edilirdi.

Sonra konsert proqramı başlandı.

davamı səh. 3-də

## Xalq artisti Hüseynağa Sadıqov yad edildi



İyunun 12-də Azərbaycan Dövlət Film Fondunda Mədəniyyət Nazirliyi və Kino Agentliyinin birgə dəstəyi ilə Xalq artisti, görkəmli teatr və kino aktyoru Hüseynağa Sadıqovun (1914–1983) 110 illiyi münasibətilə tədbir keçirildi.

Foyedə sənətkarın həyat və yaradıcılığını əks etdirən fotosərgi açılmışdı.

Tədbiri giriş sözü ilə Dövlət Film Fondunun direktoru Əməkdar incəsənət xadimi Cəmil Quliyev açaraq Hüseynağa Sadıqovun həyat və yaradıcılığı haqqında qısa məlumat verdi.

Bildirdi ki, Hüseynağa Sadıqov II Dünya müharibəsinin iştirakçısı olub. Berlinə qədər döyüş yolu keçib. İki dəfə ağır yaralanıb.

davamı səh. 3-də

## Bülbül müsabiqəsi – qalibləri tanıyaq

İncəsənətlə idmanı birləşdirən bəlkə də yeganə oxşarlıq yarışdır. Əslində, bu müqayisə də bir qədər yersizdir. Çünki sənət, xüsusən də səs yarışmasına qoşulan hər kəsin qələbəsi təkcə fiziki və mənəvi hazırlıqdan deyil, həm də hər hansı səbəbdən ifaçının iradəsinə tabe olmayacaq aləhəzrət SƏSin öz sahibinin planlarını pozmaq şıltaqlığından asılıdır. Onda "həmin gün sənin günün deyilmiş" sayaq ifadələrlə özünü və səndən qələbə gözləyənləri sakitləşdirməkdən başqa çarə yoxdur.

Yenicə başa çatmış Vokalçıların Bülbül adına IX Beynəlxalq Müsabiqəsinin qalibləri bu yarışma zamanı səslərindən xəyanət görməyənlərdir. Şuşadakı qala konsertdən öncə fürsət tapıb onların bir neçəsi ilə söhbət etdik.

davamı səh. 5-də

## Sənət incilərində yaşayan milli irs

Özbəkistanda keçirilən Azərbaycan Mədəniyyəti Günləri çərçivəsində iyunun 12-də Özbəkistan Təsviri Sənət Qalereyasında "Azərbaycanın sənət incilərində yaşayan milli irsi" adlı sərginin açılışı oldu.

Mərasimdə Azərbaycanın mədəniyyət naziri Adil Kərimli, Özbəkistanın mədəniyyət naziri Ozodbek Nazarbekov, iki ölkənin tanınmış mədəniyyət, incəsənət və elm xadimləri və qardaş ölkənin ictimaiyyət nümayəndələri iştirak edirdilər.





Özbəkistan Təsviri Sənət Qalereyasının direktoru Kamila Baltabayeva sənət ocağı və sərgi haqqında danışdı.

Azərbaycan Mədəniyyət Nazirliyi İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin müdiri Sevil Kərimova Azərbaycan təsviri və dekorativ-tətbiqi sənəti barədə məlumat verdi. Dedi ki, sərginin konsepsiyası Azərbaycan milli irsinin zəngin tarixə və qədim bədii ənənələrə, bugünkü incəsənətimizin varislik prinsiplərinə əsaslanır.

davamı səh. 3-də

"Musiqinin psixoloji təsiri"




səh. 3



Yuğ teatrının "Mənəm, mən"i Daşkənddə

səh. 5



Muzey Mərkəzində "Təbiətin rəngləri"

səh. 5

# Palçıq vulkanları mədəni və ekoloji turizm məkanına çevrilir

## Abşeron rayonu ərazisində Palçıq Vulkanları Turizm Kompleksinin açılışı olub




*əvvəli səh. 1-də*

Kompleksin Təbiət tarixi sərgi zalı eksponatların zənginliyi ilə böyük maraq doğurur. Sərginin "Böyük pişiklər", "Qobustan faunası", "Azərbaycanın vəhşi heyvanlarının ayaq izləri", "Azərbaycanın həşərat dünyası", "Kiçikölçülü heyvan skeletləri" guşələrində Azərbaycan və dünya faunasına aid vəhşi və ev heyvanlarının skeletləri, Azərbaycan təbiətinə aid olan həşəratlar, suda-quruda yaşayanlar və sürünənlər haqqında ətraflı təsəvvür yaradır.

Nümayiş etdirilən bütün heyvan skeletləri və canlılar orijinal eksponatlardır. Bu eksponatlar bioetika normalarına uyğun olaraq hazırlanıb və bioloji ölümdən sonra Azərbaycan mütəxəssisləri tərəfindən onilliklər ərzində müxtəlif yerlərdən toplanmış heyvan skeletlərindən ibarətdir.

Təbiət tarixi sərgisi Azərbaycanın faunasının zənginliyini, biomüxtəlifliyini nümayiş etdirir. Burada Azərbaycan və dünya faunasına aid 98 heyvan skeleti, 870 müxtəlif növ qurudulmuş həşərat, xüsusi məhlulda nümayiş etdirilən 57 canlı, bir sıra sürünən və suda-quruda yaşayan heyvanlar, həmçinin paleontoloji eksponatlar nümayiş etdirilir. Uşaqların və məktəblilərin ətraf aləm haqqında maraqlarını artırmaq və onlarda heyvan skeletləri barədə təəssürat yaratmaq məqsədilə divarlarda müxtəlif heyvanların şəkilləri və illüstrasiyaları sərgilənir. Həmçinin milli parklarımızda dövlət mühafizəsinə götürülmüş bir sıra heyvanların, o cümlədən bəbir, bezoar keçisi, ceyran, Xəzər suitisinin arealları haqqında məlumat verilir.

Minerallar sərgisində isə Azərbaycan ərazisindən tapılan 80-ə yaxın fərqli növ mineral nümayiş etdirilir. Ziyarətçilər burada ölkəmizin hər yerindən – Qobustandan Naxçıvana qədər əksər bölgələrdən gətirilmiş gözəl və nadir qiymətli daşlar, kristallar və geoloji nümunələri görə bilərlər. İki hissədən ibarət sərginin birinci bölməsində palçıq vulkanlarının püskürdüyü qaya brekçiyasının nümunələri, digər bölmədə isə ölkəmizdəki müxtəlif faydalı qazıntı yataqlarında tapılan minerallar nümayiş etdirilir. Yerin təki, geoloji proseslər, süxurların və mineralların əmələ gəlməsi haqqında da məlumatlar təqdim olunur.

Palçıq vulkanlarının ətrafında müasir turizm infrastrukturunun yaradılması bu ərazilərdə yerləşən vulkanlar haqqında ictimai maarifləndirmənin artmasına və onların təbiət irsi kimi təbliğinə şərait yaradacaq.

Ərazidə 110 yerlik restoran da tikilib, turistlərin vulkanları izləməsi üçün piyada yolu çəkilib. Burada panoramlı müşahidə nöqtəsi və meydança da salınıb. Bu meydançaya qalxmaqla hündürlükdən ətrafdakı palçıq vulkanlarını seyr etmək, maraqlı vaxt keçirmək mümkündür.

Palçıq Vulkanları Turizm Kompleksinin ərazisində turistlərin rahat gediş-gəlişini təmin etmək üçün avtodayanacaq salınıb. Əyləncəli vaxt keçirmək istəyən turistlər ekoloji cəhətdən təmiz nəqliyyat vasitəsi olan kvadrosikllərlə bu çətin relyefli ərazidə tura qoşulmaq imkanı əldə edəcəklər.

# Belarus Milli Kitabxanasına Azərbaycanla bağlı nəşrlər hədiyyə edilib

Milli Məclisin sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti iyunun 12-də Belarus Respublikasına rəsmi səfəri çərçivəsində Belarus Milli Kitabxanasında olub.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, nümayəndə heyəti kitabxanada yaradılan şəraitlə tanış olub, burada saxlanılan kitablar barədə məlumat alıb.

Burada yaradılan Azərbaycana həsr olunmuş bölmə haqqında da məlumat verilib. Milli Məclisin sədri kitabxanaya Azərbaycan dövlətçilik tarixi haqqında kitablar, "Qarabağ: işğaldan əvvəl və işğaldan sonra" kitab-albomunu hədiyyə edib.

Sahibə Qafarova xatirə kitabını imzalayıb.

Azərbaycan parlament nümayəndə heyəti həmçinin Minskdə "Horizont" Elektronika və İnnovasiyalar Mərkəzi və Milli Ticarət Evi ilə də tanış olub. Burada Belarus istehsalı olan müxtəlif məhsullar haqqında məlumat verilib.

# UNESCO-da ölkəmizin bəyanatı səsləndirilib

10–13 iyun tarixlərində UNESCO-nun mənzil-qərargahında "Qeyri-maddi mədəni irsin qorunması üzrə 2003-cü il Konvensiyası"na tərəfdaş ölkələrin 10-cu sessiyası keçirilib.

Sessiyanın ilk günü Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayev ölkəmizin milli bəyanatını səsləndirib. O, Azərbaycanın konvensiyanın dəyər və prinsiplərinə sadiqliyini vurğulayaraq ölkəmizin silahlı münaqişələr və təbii fəlakətlər zamanı qeyri-maddi mədəni irsin qorunmasına töhfə verdiyini bildirib.

Ermənistan tərəfindən maddi və qeyri-maddi mədəni irsimizin dağıdılması ilə bağlı danışan E.Abdullayev 30 illik işğal dövründə Azərbaycanın maddi və qeyri-maddi mədəni irsinin dağıdıldığını sessiya iştirakçılarının diqqətinə çatdırıb. Bildirib ki, bu müddətdə Ermənistanın işğalı nəticəsində 1 milyona yaxın qaçqın və məcburi köçkün çövkən, xalçaçılıq və muğam kimi qeyri-maddi mədəni irslərini öz doğma yurdlarında həyata keçirmək hüququndan məhrum edilib.

Diplomat bu il Şuşada keçirilən ənənəvi "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının "Şuşa – İslam Dünyasının Mədəniyyət Paytaxtı – 2024" ilinin açılış mərasimi ilə üst-üstə düşdüyünü, ötən il Şuşada TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə Milli Komissiyalarının 9-cu iclasının keçirildiyini xatırladıb, bu tədbirlərin qeyri-maddi mədəni irsin qorunması və təbliği baxımından vacibliyini diqqətə çatdırıb.

Daimi nümayəndə COP29-a ev sahibliyi edən ölkə olaraq iqlim dəyişikliyinin qeyri-maddi mədəni irsə təsiri mövzusunun Azərbaycan üçün əhəmiyyətli olduğunu bildirib.

# Turizm imkanlarımız Küveyt, Doha və Dubayda tanıdılır

Azərbaycan Turizm Bürosu "Ahlan Arabia" adlı silsilə tədbirlərdə iştirak edir. Dövlət Turizm Agentliyindən bildirilib ki, "Dnata" şirkətinin təşkil etdiyi silsilə tədbirlər Küveyt (Küveyt Dövləti), Doha (Qətər) və Dubay (BƏƏ) şəhərlərində keçirilir.



Tədbirlər çərçivəsində B2B və B2C formatlı görüşlər təşkil olunub. Görüşlərdə ölkəmizin turizm imkanları, o cümlədən Bakı və Azərbaycanın digər bölgələri, əsasən yay və qış mövsümü haqqında məlumat yerli turizm şirkətlərinə təqdim olunub.

Bundan əlavə, iştirakçılara Azərbaycanda mövcud olan sağlamlıq turizmi obyektləri və müalicəvi kurortlar, ekoturizm, qastronomiya kimi turizm məhsulları haqda məlumat verilib.

İyunun 11-də başlayan "Ahlan Arabia" adlı silsilə tədbirlər iyunun 14-də başa çatacaq.

Qeyd edək ki, 2024-cü ilin yanvar-may aylarında Yaxın Şərq ölkələrindən Azərbaycana 81 mindən çox qonaq gəlib. Bu, ötən illə müqayisədə 39 faiz çoxdur.

# Özbək dilinə tərcümə edilmiş "Qılınc və qələm" Daşkənddə təqdim olunub

Özbəkistanda keçirilən Azərbaycan Mədəniyyəti Günlərinin zəngin proqramında milli ədəbiyyatımıza da yer ayrılmışdı.

İyunun 13-də Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) tarixi romanlar müəllifi Məmməd Səid Ordubadinin özbək dilinə tərcümə olunmuş "Qılınc və qələm" kitabının təqdimatı keçirilib.








Özbəkistan alim və ziyalılarının da iştirak etdiyi mərasimi Azərbaycan Yazıçılar Birliyinin (AYB) katibi, şair-dramaturq İlqar Fəhmi açıb.

Sonra söz mədəniyyət nazirinin müavini Fərid Cəfərova verilib. Nazir müavini bildirib ki, Azərbaycan Mədəniyyət Nazirliyi tərəfindən görkəmli şair və yazıçılarımızın əsərlərinin xarici dillərə tərcümə edilərək təbliğ olunması diqqətdə saxlanılır. İndiyədək 100-dən artıq müəllifin əsərinin tərcümə və nəşri həyata keçirilib. Milli ədəbiyyatımızın Türk dünyasında da tanınmasına xüsusi önəm verilir.

Nəşrin əhəmiyyətini vurğulayan Fərid Cəfərov deyib ki, bu kitabla görkəmli nasir Məmməd Səid Ordubadi ilə yanaşı, əsərdə obrazı yaradılan dünyaşöhrətli Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi və onun dövrü haqqında özbək oxucularda geniş təsəvvür yaranacaq.

Özbəkistanın ədəbiyyatşünas-alimləri, professorlar Nurboy Cabbarov, Abdulla Uluğov, AYB-nin katibi, şair, tərcüməçi Səlim Babullaoğlu, Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyətinin icraçı direktoru Erkin Nuriddinov, şair Aqşin Yenisey və on ilə yaxın Daşkənddəki AMM-yə rəhbərlik etmiş, hazırda Ankaradakı AMM-in direktoru olan Samir Abbasov çıxış ediblər.

Çıxışlarda yeni nəşrin əhəmiyyəti qeyd edilib, Nizami Gəncəvinin ideyalar aləmindən bəhs olunub.

Tədbirdə Nizami Gəncəvinin şeirləri qiraət olunub, qəzəlləri üstündə muğamlar ifa edilib.

Qeyd edək ki, əsərdə Nizami Gəncəvinin surəti mərkəzi yer tutsa da, müəllif bununla kifayətlənməyərək dahi şairin yaşadığı dövrün hərtərəfli mənzərəsini canlandırmağa çalışıb, xalq həyatının geniş lövhələrini yaradıb. Buna görədir ki, roman baş qəhrəmanının adı ilə deyil, əsərin həyat materialında mühüm yer tutan iki amilin – xalqın fiziki və mənəvi qüvvəsinin rəmzi olaraq "Qılınc və qələm" adlandırılıb.

Romanı özbəkcəyə Nazira Aliyeva, Muhsin Hamidov və Rustam Komilov çeviriblər.

# 12 tələbə filminin istehsalına dəstək



Azərbaycan Respublikası Kino Agentliyi (ARKA) gənc kinematoqrafçılara dəstək addımlarını davam etdirir. ARKA və "Tədris-film" kinostudiyası arasında bağlanan müqaviləyə əsasən, 12 tələbə filminin istehsalı uçun vəsait ayrılıb.

Müqavilə "İnam", "Düşmüş mələk", "Tullantılar dünyası", "Balıqçı kafesində görüş", "Fundament", "Dəyişə bilməyən adam", "Çağırılmamış qonaq", "Ulduzun hekayəsi", "Şirin yuxu", "Biçilmiş don", "Mühafiz", "Sabah" film layihələrini əhatə edir. Ümid edirik ki, bu yaradıcı əməkdaşlığın bəhrəsini yaxın vaxtlarda ərsəyə gələcək uğurlu ekran işləri ilə görəcəyik.

Qeyd edək ki, ARKA eyni vaxtda 12 gəncin diplom işi olan filmini maliyyələşdirməklə kino tariximizdə bir ilkə imza atıb. Bu ənənə davam edəcək, ARKA tərəfindən hər il istedadlı tələbələrin diplom işlərinə dəstək göstəriləcək.

Bu xüsusda azərbaycanlı tələbələrin ekran işlərinin Qazaxıstanda təşkil edilən Fərabi Film Festivalında mükafata layiq görülməsi Azərbaycan kinosunun gələcək uğurlarından xəbər verir.

Gənclərə dəstək maliyyə yardımı ilə yekunlaşmır. Gənc kinematoqrafçılara dəstək məqsədilə ARKA Alternativ Kino Akademiyası da təsis edib.

# "Canım Qazaxıstan"da bizimkilər də var

Qazaxıstanda "Canım Qazaxıstan" adlı bədii filmin çəkilişlərinə başlanılıb. Filmin quruluşçu rejissoru Damir Tastembekovdur. Film komik situasiyaları olan melodram janrındadır.

Azərbaycan tamaşaçısı üçün önəmli olan isə filmdə sevimli aktrisamız, Əməkdar artisti Sənubər İsgəndərlinin və Azərbaycan Dövlət Pantomima Teatrının aktrisası Aydan Həsənovanın rol almasıdır.

Filmin çəkilişləri Qazaxıstanda və Türkiyənin Alanya şəhərində aparılır. Sənubər İsgəndərli filmdə türk iş adamı, biznesvumən Zeynəb xanım rolunda çəkilir. Aydan Həsənova isə onun qızı kimi ekranda görünəcək.

Sənubər xanımla telefonla əlaqə saxlayanda o öz obrazı barədə bunu dedi:

– Film müasir həyatdan götürülüb. Zeynəb xanım iş adamıdır, çox iradəli, əzmkar bir qadındır. Qızı da onun şirkətində çalışır. Mənim qəhrəmanım qızına qarşı çox sərt davranır. Lakin filmin sonunda anlayır ki, onun qızına rəhbər yox, ana lazımmış. Bu filmdə sevgi də var, gülüş də, göz yaşı da. Hələ ki, çəkilişlər gedir.

Aydan Həsənova da "Canım Qazaxıstan" filmində canlandırdığı obraz barədə fikirlərini bizimlə bölüşdü:

– Mən filmdə Asiyə rolunda çəkilirəm, o, filmin baş qəhrəmanıdır. Varlı ailənin qızıdır, anası ilə birlikdə çalışsa da, mənəvi baxımdan aralarında məsafə böyükdür. Filmin sonunda bu problem həllini tapır.

**Gülcahan Mirməmməd**

# Rəsulzadənin 140 illik yubileyinə həsr olunmuş bilik yarışması

Firidun Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkilatçılığı, Bakı şəhəri M.Rahim adına 7 saylı tam orta məktəbin tərəfdaşlığı ilə iyunun 12-də "Açıq dərs – açıq fikir" layihəsi çərçivəsində Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinə həsr olunmuş bilik yarışması keçirilib.



8-ci sinif şagirdləri arasında bilik yarışmasının münsifləri AMEA-nın Tarix və Etnologiya İnstitutu Azərbaycan Xalq Cümhuriyyəti tarixi şöbəsinin əməkdaşları – tarix üzrə fəlsəfə doktorları Natiq Məmmədzadə, Mübariz Ağalarlı, elmi işçi Lamiyə Sultanova və Uşaq Kitabxanasının elmi işlər üzrə direktor müavini Zahirə Dadaşova olub.

1-ci yerə layiq görülən Əli Hüseynzadəyə Uşaq Kitabxanasının direktoru Əməkdar mədəniyyət işçisi Şəhla Qəmbərova tərəfindən diplom və hədiyyə təqdim edilib.

Sonda məktəb şagirdlərinin ifasında "İncəbellim" ("Dədə Qorqud" filmindən Beyrəyin mahnısı; söz – Anar, musiqi – E.Sabitoğlu) və "Çırpınırdın, Qara dəniz" (Ə.Cavad, Ü.Hacıbəyli) mahnıları səsləndirilib.

# Özbəkistan səhnəsində Azərbaycan incəsənətinin növbəti təntənəsi

*əvvəli səh. 1-də*

İlk olaraq Həzrət Əzizlinin ifasında "Bayatı-Şiraz" muğamı, "Natiq" ritm qrupu və "Mirvari" rəqs ansamblının kompozisiyası böyük coşqu ilə qarşılandı.

Əməkdar artist, tarzən Sahib Paşazadə "Çahargah" rapsodiyasını və "Andijon polkası" özbək xalq rəqsini, müğənni Almaxanım Əhmədli "Küsmə, gəl" mahnısını, Əməkdar artist Nigar Şabanova "Sən gəlməz oldun", Afaq Abbasova "Bakı", Azərbaycan Dövlət Rəqs Ansamblı "Uzundərə", "Qaytağı" və "Zəngəzur yallısı" rəqslərini təqdim etdilər.





Elnur Mikayılov kamançada "Hayrona" özbək mahnısını ifa etdilər.

Xalq artisti Mənsum İbrahimovun rəhbərlik etdiyi "Qarabağ" muğam qrupu "Musiqi çələngi", Özbəkistanın və Azərbaycanın Xalq artistləri Nəsibə Abdullayeva "Qarabağ", Gülyanaq Məmmədova isə "Uluğumsan Vətənim" mahnılarını oxudular. Aşıq Samirə və aşıq Əli "Aşıq havaları", Xalq artisti Zülfiyyə Xanbabayeva "Şuşanın dağları", Xalq artisti Azər Zeynalov "Şükriyyə", Afaq Abbasova və Azər Zeynalov "Arşın mal alan" operettasından duet, Azad Şabanov "Qayınana" filmindən "Popurri" və başqa musiqi nömrələrini ifa etdilər.

Konsertin axırında bütün iştirakçılar Rauf Hacıyevin "Azərbaycan" mahnısını birlikdə səsləndirdilər. Salonun ayaq üstə alqışladığı mahnıdan sonra nazirlər Adil Kərimli və Ozodbek Nazarbekov səhnəyə çıxaraq sənətçilərlə görüşdü, uğurlu ifa münasibətilə onları təbrik etdilər.

Sonda xatirə şəkilləri çəkdirildi.

**Fariz Yunisli**
**Daşkənd**

# Sənət incilərində yaşayan milli irs

## Azərbaycan Mədəniyyəti Günləri çərçivəsində Daşkənddə sərgi açılıb



*əvvəli səh. 1-də*

Sonra qonaqlar sərgi ilə tanış oldular.

Məlumat verildi ki, sərginin birinci hissəsi Azərbaycan Milli İncəsənət Muzeyində qorunan peşəkar Azərbaycan qrafikasının banisi Əzim Əzimzadənin XX əsrin əvvəllərində yaratdığı əsərləri əhatə edir. Qrafik əsərlərin bədii interpretasiyaları muzey fondunun unikal eksponatları əsasında işlənib.

İkinci zalda son 20 il ərzində toplanan şəxsi kolleksiyadan 27 ədəd XVIII–XX əsrlərə aid kəlağayı təqdim edilir. Üçüncü zalda "Azərxalça" ASC-nin xalçaları nümayiş olunur. Növbəti zalda Azərbaycan Rəssamlar İttifaqı tərəfindən hazırlanan videoçarx nümayiş etdirilir.



Qalereyanın ikinci mərtəbəsinin foyesində qurama, zərgərlik, misgərlik, şəbəkə üzrə əl işləri sərgilənirdi. Sənətkarlarımız əl işlərinin hazırlanması prosesini əyani şəkildə nümayiş etdirirdilər.

Ənənələrin yaşaması ideyası həmin məkanda təqdim olunan Yusif Zadənin "Adi şəhər" adlı fotosərgisində də yer almışdı.

Sonra qonaqlar "ATİDE" və "Anara Zakirli" geyim brendlərinin nümayişini izlədilər.

"ATİDE" 2019-cu ildə təsis edilmiş Azərbaycan brendidir. Brendin müəllifi istedadlı modelyer Aida Kahvecidir. Brendin adı "sandıq" mənasını verir ki, bu da təsadüfi deyil. Məqsəd ana və nənələrimizin sandığında qədimdən qalan milli geyimlərimizi müasir moda ilə birləşdirərək Azərbaycanın mədəni irsini yaşatmaq və gələcək nəsillərə ötürməkdir.



Təqdim olunan "Şamaxı" geyim kolleksiyası Azərbaycanın qədim şəhərinin adını daşıyır. Qədimdə Azərbaycanın məşhur qadın baş örtüyü olan kəlağayıların bir qismi Şirvan bölgəsində istehsal olunurdu ki, onlara da el arasında "Şamaxı" deyilirdi. Kolleksiyada təqdim olunan geyimlərin üzərində məhz kəlağayı ornamentləri təsvir edilib.

"Anara Zakirli" brendi isə 2018-ci ildə təsis edilib. Müəllifi istedadlı modelyer Anara Zakirli olan brendin yaradılmasında məqsəd Azərbaycanın milli xalça ornamentlərini müasir geyimlərlə sintez edərək moda dünyasına tanıtmaq, Şərqin və Qərbin ahəngində parlayan ölkəmizin mədəniyyətini dəbli geyimlərlə hər kəsin diqqət mərkəzinə çəkməkdir.

Təqdim olunan "Zərəfşan" geyim kolleksiyası Azərbaycanın məşhur "Əfşan" xalçasından ilhamlanaraq hazırlanıb. Geyimlərdə Odlar yurdu Azərbaycanın al-əlvan rəngli milli ornamentlərini özündə əks etdirən və özəl olaraq hazırlanmış unikal parçalardan istifadə edilib.

Kolleksiyada təqdim olunan hər bir işin arxasında qədim tarix, sirli hekayələr, incə əl işi və ucsuz-bucaqsız təxəyyül dayanır.

Azərbaycan xalq mahnılarının müşayiətində təqdim edilən tarix yadigarları, xalça və digər əl işləri ziyarətçilərdə zəngin təəssürat yaratdı.

**F.Yunisli**
**Daşkənd**

# "Arşın mal alan" yenidən qardaş eldə alqışlar qazanıb

Daşkənddə Azərbaycan Mədəniyyəti Günləri çərçivəsində iyunun 12-də dahi Üzeyir Hacıbəylinin dünyaşöhrətli "Arşın mal alan" operettasının tamaşası nümayiş olunub. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının yaradıcı heyəti musiqili komediyanı Əlişir Nəvai adına Dövlət Akademik Teatrında təqdim edib.

Quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Hafiz Quliyev olan səhnə əsərində rolları Əməkdar artistlər Ramil Qasımov (Əsgər), İnarə Babayeva (Gülçöhrə), Xalq artisti Gülyaz Məmmədova (Telli), Əməkdar artistlər Cahangir Qurbanov (Soltan bəy), Gülüstan Əliyeva (Cahan xala), Səbinə Vahabzadə (Asya), eləcə də Taleh Yahyayev (Süleyman), Sadiq Məlikov (Vəli) ifa ediblər.

Qardaş ölkənin orkestrinin müşayiəti ilə nümayiş olunan səhnə əsərini Əməkdar incəsənət xadimi, dirijor Sevil Hacıyeva idarə edib.

Üzeyir bəy dühasının şah əsərlərindən biri növbəti dəfə alqışlar qazanıb.



Qeyd edək ki, Ü.Hacıbəyli bu əsəri 1913-cü ildə yazıb. Həmin il oktyabrın 25-də Bakıda əsərin uğurlu təqdimatından sonra tamaşa Qafqaz ölkələri, Rusiya, sonra isə bütün dünyanın səhnələrinə ayaq açıb. Əsər bundan öncə dəfələrlə Özbəkistanda tamaşaya qoyulub.

# Xalq artisti Hüseynağa Sadıqov yad edildi

*əvvəli səh. 1-də*

Görkəmli aktyor "Azərbaycanfilm"in istehsalı olan "Sehrli xalat", "Səhər", "Yenilməz batalyon", "Telefonçu qız", "Babamın babasının babası", M.Qorki adına kinostudiyada çəkilən "Ələddinin sehrli çırağı" filmlərində müxtəlif səpkili obrazlar yaradıb.

Cəmil Quliyev yeniyetmə ikən özünün də rol aldığı "Alma almaya bənzər" filminin (1975) çəkiliş prosesini də xatırladı: "Hüseynağa Sadıqovla ilk tanışlığımız fotosınaqlarda yarandı. Təxminən bir gün ərzində bir yerdə olduq. O, üzügülər, səmimi, zarafatcıl və təvazökar bir insan kimi yaddaşımda qalıb. Hüseynağa müəllim çəkiliş dövründə hamının sevimlisi idi. Çəkiliş meydanına da həmişə vaxtından tez gəlirdi. Bütün işçilərə, xüsusən uşaqlara diqqətlə yanaşırdı. Şəkər xəstəsi olduğu üçün



həmişə çantasında ehtiyat ərzağı olurdu. Hamıya da bu ərzaqdan təklif edirdi. O, çox ehtiyatlı və səliqəli adam idi. Yola çıxarkən çantasında hər bir ləvazimatı – iynə-sap, su-qaynadan cihaz, qayçı, dava-dərman və s. götürərdi...".

Görkəmli aktyorla uzun illər Gənc Tamaşaçılar Teatrında birgə çalışmış Xalq artisti Tariyel Qasımov çıxışında H.Sadıqovun xoşbəxt sənətkar olduğunu bildirdi. Qeyd etdi ki, sənətkarın xoşbəxtliyi onda idi ki, onu hər kəs sevirdi. Çox qürurlu insan idi. Öz sənətinə hörmətlə yanaşırdı.

Tədbirdə daha sonra Xalq artisti Cəfər Namiq Kamal, filologiya üzrə fəlsəfə doktoru Firudin Qurbansoy H.Sadıqov haqqında xatirələrini danışdılar.

Qeyd olundu ki, 1928-ci ildə Bakıda Fəhlə Uşaq Teatrı yaranır. Sonralar öz fəaliyyətini Gənc Tamaşaçılar Teatrı kimi genişləndirir. Hüseynağa Sadıqov aktyor kimi məhz bu səhnədən pərvazlanır. Çox gənc ikən tamaşaçılar qarşısında çıxış edir.

Çıxış edənlər tanınmış aktyorun xatirəsini əziz tutduğuna və tədbirin təşkilinə görə Dövlət Film Fonduna təşəkkür etdilər.

Çıxışlar arası sənətkarın həyat və yaradıcılığını əks etdirən videoçarx və çəkildiyi filmlərdən fraqmentlər nümayiş olundu.

**S.Fərəcov**

# Daşkənddə Heydər Əliyevin abidəsi ziyarət olunub

Özbəkistanda keçirilən Azərbaycan Mədəniyyəti Günləri çərçivəsində iyunun 12-də xalqımızın Ümummilli lideri, iki ölkə arasında siyasi əlaqələrin möhkəmləndirilməsində müstəsna xidmətləri olmuş Heydər Əliyevin Daşkənd şəhərindəki abidəsi ziyarət olunub.

Azərbaycanın mədəniyyət naziri Adil Kərimli, Özbəkistanın mədəniyyət naziri Ozodbek Nazarbekov, ölkəmizin tanınmış mədəniyyət, incəsənət və elm xadimləri Ulu öndərin abidəsi önünə tər çiçəklər düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

# Mədəniyyət nazirlərinin görüşü

Özbəkistanda keçirilən Azərbaycan Mədəniyyəti Günləri çərçivəsində iyunun 11-də iki ölkənin mədəniyyət nazirləri Ozodbek Nazarbekov ilə Adil Kərimli arasında görüş olub.



Özbəkistan Forumlar Sarayında gerçəkləşən görüşdə azərbaycanlı həmkarını salamlayan Ozodbek Nazarbekov Daşkənddə keçirilən Azərbaycan Mədəniyyəti Günlərinin əhəmiyyətini vurğulayıb.

Azərbaycanın mədəniyyət və incəsənət xadimlərini yenidən ölkəsində görməkdən məmnunluğunu bildirən nazir özbək xalqının Azərbaycan mədəniyyətinə həmişə sevgi və rəğbət bəslədiyini deyib.

İkitərəfli görüşə və Azərbaycan nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirən nazir Adil Kərimli ölkəmizdən incəsənət ustalarının Özbəkistana böyük sevgi və həvəslə gəldiklərini diqqətə çatdırıb.

Qeyd olunub ki, həmin gün Azərbaycan mədəniyyət nazirinin Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən qəbul edilməsi qardaş ölkənin dövlət başçısının Azərbaycanla münasibətlərə böyük diqqət yetirməsinin və mədəniyyətimizə olan rəğbətinin parlaq təzahürüdür.

Bildirilib ki, görüş zamanı Özbəkistan Prezidenti tərəfindən birgə mədəni layihələrin həyata keçirilməsinin əhəmiyyəti vurğulanıb, görkəmli özbək və Azərbaycan şairləri Əlişir Nəvai və Məhəmməd Füzuliyə həsr olunan filmin çəkilməsi ilə bağlı təklif səsləndirilib. Nazirlərin görüşündə dövlət başçısının bu təklifi ilə bağlı müzakirə aparılıb.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi olub.

Sonda qarşılıqlı xatirə hədiyyələri təqdim edilib.

# "Musiqinin psixoloji təsiri" – elmi-praktiki seminar

İyunun 12-də Beynəlxalq Muğam Mərkəzində (BMM) "Musiqinin psixoloji təsiri" mövzusunda elmi-praktik seminar keçirildi. Tədbir Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin (MEMİM) təşkilatçılığı, Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və BMM-in dəstəyi ilə gerçəkləşdi.



MEMİM-in direktoru vəzifəsini icra edən sənətşünaslıq üzrə fəlsəfə doktoru Vüqar Hümbətov tədbiri açaraq musiqinin insanların bədii zövqünün formalaşdırılmasında, estetik tərbiyəsində rolunu vurğuladı. Elmi seminarın bu xüsusda insanların maarifləndirilməsi üçün önəmi qeyd edildi.

Mərkəzin əməkdaşı, sənətşünaslıq üzrə fəlsəfə doktoru Səadət Təhmirazqızının moderatorluğu ilə keçən seminarda tibb elmləri doktoru, oftalmoloq Paşa Qəlbinur "Terapiyada musiqinin rolu", Təhsil İnstitutu Təhsilin iqtisadiyyatı və idarə olunması şöbəsinin aparıcı elmi işçisi, psixologiya üzrə fəlsəfə doktoru, musiqişünas Bahar Bəylərova-Ələkbərova "Musiqinin tərbiyədə və təhsildə rolu", sənətşünaslıq üzrə fəlsəfə doktoru Könül Əhmədova "Musiqinin uşaq psixologiyasına təsir vasitələri" mövzularında məruzələrlə çıxış etdilər.

Seminarda həmçinin Türkiyənin neyroelm mütəxəssisi, professor Sinan Cananın "Musiqi və beyin" mövzusunda çıxışı videoformatda dinlənildi.

Çıxışlardan sonra mövzularla əlaqədar müzakirələr aparıldı, mütəxəssislər iştirakçıların suallarını cavablandırdılar.

BMM-in Cahangir Cahangirov adına Xoru (bədii rəhbər və dirijor Əməkdar müəllim Təranə Yusifova), beynəlxalq müsabiqələr laureatı, pianoçu Jalə İslamova və tarzən Elşən Tahirov musiqi nömrələri ilə çıxış etdilər.

**Lalə Azəri**

# "Bülbülün qonaqları" – Cabbar Qaryağdıoğlu anılıb

Bülbülün Memorial Muzeyinin "Bülbülün qonaqları" layihəsində bu dəfə Azərbaycan xanəndəlik məktəbinin görkəmli nümayəndəsi Cabbar Qaryağdıoğlu yad edilib.



Muzeyin direktoru Fərqanə Cabbarova giriş sözündə Bülbül və Cabbar Qaryağdıoğlunun dostuluğundan, onların Elmi-Tədqiqat Musiqi Kabinetindəki birgə fəaliyyətindən, xalq musiqisinin inkişafında xanəndənin misilsiz xidmətlərindən bəhs edib.

Tədbirdə Azərbaycan Milli Konservatoriyasının (AMK) tələbələri Murad Kərimli, Aycan Şükürlü, Nuray Hacızadə, VIII "Muğam" Televiziya Müsabiqəsinin laureatı Nərgiz Cabbarova "Rast", "Qatar", "Bayatı-Şiraz", "Şahnaz" təsniflərini ifa ediblər.

Sonda xanəndənin repertuarından "Qarabağ şikəstəsi" səsləndirilib.

AMK-nın Tələbə və gənclər təşkilatının sədri Ayxan İmanov tədbirin təşkilinə görə muzeyin rəhbərliyinə təşəkkürünü bildirib.

# Şuşalı rəssamın çiçəklənən arzusu

Azərbaycan Rəssamlar İttifaqının Vəcihə Səmədova adına sərgi salonunda şuşalı rəssam Səyyar Əliyevin "Çiçəklənən Şuşa" adlı fərdi sərgisi açılıb.



Sərgidə 80-dən çox əsər yer alıb. Ekspozisiyada müəllifin Şuşaya, Xocalı faciəsinə həsr olunan əsərləri, abstrakt və peyzaj janrında çəkdiyi rəsmləri nümayiş olunur. Rəssam Vətən müharibəsində tarixi Zəfərə həsr olunmuş "Ata vəsiyyəti", "Şuşa qalası", "Cıdır düzü", "Xarıbülbül" əsərlərini də sənətsevərlərə təqdim edib.

"2016-cı ildə Azərbaycan Rəssamlar İttifaqında sərgim açılanda dedim ki, vaxt gələcək biz Şuşaya qayıdacağıq. İndi ən böyük arzum Şuşada qalereya açmaqdır. Planlarımda pulsuz rəssamlıq məktəbi açmaq da var. Şuşaya ilk gəldiyimdə ən sevdiyim Cıdır düzünə getdim. Oranı gördüyümdə məni sevinc hissi bürüdü, çünki qəlbində qayıtmaq ümidi ilə yaşayırdım. Sonra illər öncə ayrıldığım evimə getdim. Evin həyətində bitən armud ağacını qucaqladım və kövrəldim. Elə bildim ki, dünyanı mənə verdilər", – deyə rəssam bildirib.

# Salyanda "Hərənin öz ulduzu"

Salyan Dövlət Kukla Teatrında "Hərənin öz ulduzu" adlı tamaşa nümayiş olunub.



Yazıçı-dramaturq İsi Məlikzadənin əsəri əsasında hazırlanan tamaşada mədəniyyət evinə göndərilən yeni direktorun başına gələn əhvalatlar satira dili ilə çatdırılır.

Tamaşanın quruluşçu rejissoru Əməkdar mədəniyyət işçisi Laləzər Hüseynova, rəssamı Ceyhun Rüstəmbəyli, musiqi tərtibatçısı Elvin İsayevdir. Rolları Nahid Rüstəmbəyli, Röyal Qurbanov, Mirxədicə Mirzəyeva, Mədinə Ramazanova, Maytab Gözəlova və başqaları canlandırıb.

Tamaşadan sonra Şirvan-Salyan RMİ-nin rəisi Şahin Şahbazov yaradıcı heyətlə görüşüb, onlara uğurlar diləyib.

# Gənc Tamaşaçılar Teatrının "Dəcəl keçi"si Qubada

Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrı regionlara təşkil olunan qastrol səfərləri çərçivəsində Quba şəhər Mədəniyyət evində Pərvin Nurəliyevanın "Dəcəl keçi" tamaşasını nümayiş etdirib.



Səhnə əsərinin quruluşçu rejissoru Ayla Osmanova, quruluşçu rəssamı Elşən Sərxanoğludur. Rolları Vahid Orucoğlu, Anar Seyfullayev, Yusif Dadaşov, Ədalət Əbdülsəməd, Səbinə Məmmədzadə, İlqarə Tosova və Zümrüd Quliyeva oynayırlar.

Azyaşlıların böyük sevincinə səbəb olan tamaşanın nümayişində qazi və şəhid övladları da iştirak ediblər.

# Tamaşaçılar məktəblilərdir

Xəbər verdiyimiz kimi, Elm və Təhsil, Mədəniyyət nazirliklərinin birgə təşkilatçılığı ilə "Məktəblilər üçün teatr pedaqogikası" adlı layihə həyata keçirilir.



Layihə çərçivəsində iyunun 11-də Şəki Dövlət Dram Teatrında məktəblilər üçün Xaqani Əliyevin "Çələbi xan" tarixi dram əsəri əsasında hazırlanmış eyniadlı tamaşa nümayiş olunub.

Layihə üzrə daha bir tamaşa Lənkəran Dövlət Dram Teatrında göstərilib. Məktəblilər Lənkəran Dövlət Dram Teatrında "Haqqın 44 günü" tamaşasına baxıblar.

Layihənin məqsədi uşaq və gənclərdə estetik zövq formalaşdırmaq, onların incəsənətə marağını artırmaq, həmçinin asudə vaxtlarını səmərəli təşkil etməkdir.

# Respublika rəsm müsabiqəsinin iştirakçıları ilə görüş

Salyan Dövlət Rəsm Qalereyasında "Azərbaycanım" Beynəlxalq VII Uşaq və Gənc Rəsm Festivalının iştirakçıları ilə görüş keçirilib.



Qalereyanın direktoru Kürçaylı Məmmədov Bakı Xətai Sənət Mərkəzində keçirilən festival haqqında məlumat verib. Bildirib ki, 28 May – Müstəqillik Gününə həsr olunan festival çərçivəsində elan olunan müsabiqədə Salyan Dövlət Rəsm Qalereyasının 18 nəfər rəssam dərnək üzvü də iştirak edib. 13-16 yaş arasında onluğa düşən dərnək üzvü Aytən Abasova (müəllimi İman Mustafayev) isə festivala dəvət olunub. Gənc rəssam Salyan Dövlət Rəsm Qalereyasını "Yasəmən" tablosu ilə təmsil edib.

Çıxışlarda bildirilib ki, bu cür yerli və beynəlxalq festival, müsabiqə və sərgilər paytaxtla yanaşı, regionlarda yaşayan yaradıcı uşaqlara da böyük stimul verir.

# Əbədi müstəqilliyimizin dönüş nöqtəsi

Bölgələrdə 15 İyun – Milli Qurtuluş Günü münasibətilə müxtəlif tədbirlər keçirilir.

Quba-Xaçmaz RMİ və Quba-Xaçmaz Regional Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Müstəqillikdən qurtuluşa" mövzusunda dəyirmi masa keçirilib. Çıxış edənlər bildiriblər ki, tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü ilin 15 iyun tarixində Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbaycanı böyük bəladan – parçalanma və müstəqilliyini itirməsi təhlükəsindən qurtarıb. Müstəqil Azərbaycan dövləti var olduqca Heydər Əliyevin əziz xatirəsi xalqımızın yaddaşında əbədi yaşayacaq.





***




Xaçmaz rayon Heydər Əliyev Mərkəzində "Milli qurtuluşun açdığı yolla böyük gələcəyə" adlı tədbir keçirilib. Bədii hissədə şeirlər səsləndirilib, musiqilər ifa edilib. Xaçmaz rayon Peşə Liseyi şagirdlərinin əl işlərindən ibarət sərgiyə baxış olub.

***



Qax rayon Heydər Əliyev Mərkəzində "Qurtuluş Günü – əbədi müstəqilliyimizin dönüş nöqtəsi" adlı ədəbi-bədii gecə təşkil edilib. Tarixi günün mahiyyətindən bəhs edən sənədli film nümayiş olunub. Rəqs, mahnı və şeir nümunələri təqdim edilib.

Bərdə rayon Heydər Əliyev Mərkəzində "Böyük xilaskar – Heydər Əliyev" adlı tədbir keçirilib. Mövzu ətrafında çıxışlardan sonra "Qurtuluşdan inkişafa" adlı qısametrajlı film nümayiş olunub.

***

Lənkəran şəhər Mərkəzi Kitabxanası "Tarixi qayıdış" adlı tədbir təşkil edib. Tədbirin bədii hissəsində vətənpərvərlik ruhunda şeirlər və mahnılar səsləndirilib.

Astara rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə "15 İyun – Milli Qurtuluş Günü və onun müəllifi, müstəqil Azərbaycanın qurucusu" mövzusunda film nümayiş olunub.

Milli Qurtuluş Günü münasibətilə Lerik şəhər Malik Bağışov adına 3 nömrəli tam orta məktəbin şagirdlərinin rayonun Heydər Əliyev Mərkəzinə ekskursiyası təşkil edilib.

**Hazırladı: N.Məmmədli**

# Musiqi və incəsənət məktəblərinin hesabat konsertləri




Zəngilan şəhər Uşaq musiqi məktəbində (Bakı şəhəri) 2023–2024-cü tədris ilinin sonuna dair hesabat konserti keçirilib. Tədbirdə Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri səslənib, xalq mahnıları ifa olunub. Konsert proqramı xoş ovqatla sona çatıb.

Zəngilan rayon Mincivan qəsəbə Uşaq musiqi məktəbində də (Bakı) hesabat konserti olub. Xalq və bəstəkar mahnıları ifa olunub. Sonda Şərqi Zəngəzur RMİ-nin rəisi Rəşad Əliyev çıxış edərək tədbir iştirakçılarına uğurlar arzulayıb.

Laçın rayon Şəlvə kənd Uşaq musiqi məktəbində (Bakı) "Çiçəklənən Azərbaycan" adlı hesabat konserti təşkil edilib. Proqramda rəngarəng musiqi nömrələri təqdim olunub.

Cəbrayıl şəhər Uşaq Musiqi Məktəbində (Bakı şəhəri) 2023-2024-cü tədris ilinin sonuna dair hesabat konserti keçirilib. Konsertdə Azərbaycan və xarici bəstəkarların əsərləri, eləcə də xalq və bəstəkar mahnıları ifa olunub.

***



Lerik rayon Mədəniyyət Mərkəzində Zamir Tağıyev adına Çayrud kənd Uşaq musiqi məktəbinin hesabat konserti keçirilib. Konsert görkəmli bəstəkar, Xalq artisti Süleyman Ələsgərovun (1924–2000) 100 illiyinə həsr olunub. Müəllim və şagirdlər Süleyman Ələsgərovun, eləcə də digər bəstəkarların əsərlərini, xalq mahnıları ifa ediblər.

***

Gədəbəy şəhər Uşaq incəsənət məktəbi də 2023/2024-cü tədris ili üzrə hesabat konserti təşkil edib. Məktəbin müxtəlif ixtisasları üzrə təhsil alan şagirdləri il ərzində mənimsədikləri bacarıqlarını nümayiş etdiriblər.



Rəssamlıq şöbəsi şagirdlərinin əl işləri də nümayiş olunub. Fəal şagirdlər təltif olunub.

Gədəbəy rayon Slavyanka kənd Uşaq musiqi məktəbinin hesabat konsertində məktəbin müəllim və şagirdlərinin ifasında Azərbaycan xalq mahnıları, tanınmış bəstəkarların əsərləri səsləndirilib. İl ərzində fərqlənən şagirdlərə fəxri fərman təqdim edilib.

# "Könül mülkünün sultanı"

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin və nazirliyin tabeliyindəki Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzin təşkilatçılığı ilə iyunun 11-də Naxçıvan Dövlət Milli Dram Taatrında dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 530 illik yubileyi münasibətilə "Könül mülkünün sultanı" adlı tədbir keçirilib.



Mərkəzin direktoru Səyyar Məmmədovun moderatorluğu ilə keçirilən ədəbi-bədii gecədə Naxçıvan Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyatı kafedrasının professoru, filologiya elmləri doktoru Sədaqət Həsənova, kafedranın dosenti, filologiya üzrə fəlsəfə doktoru Seyfəddin Eyvazov və başqaları çıxış ediblər.

Çıxışlarda dahi şair Məhəmməd Füzulinin poeziyasından geniş bəhs edilib. Prezident İlham Əliyevin "Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında" imzaladığı müvafiq sərəncamını söz sənətimizə və mədəniyyətimizə göstərilən diqqətin təcəssümü kimi dəyərləndirən alimlər şairin yaradıcılığından olan nümunələri ədəbiyyatşünaslıq və dilçilik baxımından təhlil ediblər.

Tədbir bədii hissə ilə başa çatıb.

# Tələbələr Qəbələ qoruğunda istehsalat təcrübəsində

Bakı Dövlət Universiteti Tarix fakültəsinin tələbələri Qəbələ Dövlət Tarix-Bədii Qoruğu və Qəbələ Arxeoloji Mərkəzində istehsalat təcrübəsində olublar. Təcrübədə fakültənin 180-dək buraxılış kurs tələbəsi iştirak edib.

Qoruqdan bildirilib ki, istehsalat təcrübəsi zamanı tələbələr əvvəlcə Qəbələ Arxeoloji Mərkəzinin sərgi salonlarında nümayiş olunan eksponatlarla tanış olublar. Onlara mərkəzin yaradılması və bu sahədə SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının gördüyü işlər barədə məlumat verilib.

Sonra tələbələr qoruq ərazisində arxeoloji qazıntılar aparılan sahələrlə tanış olublar.



Arxeoloji qazıntılar və arxeoloqlar tərəfindən aşkar olunan tarixi tapıntılar barədə məlumat verilib, tələbələri maraqlandıran suallar cavablandırılıb.

# Qəhrəmanın ev-muzeyi ziyarət olunur

Astara Pedaqoji Kollecinin bir qrup müəllim və işçi heyəti Azərbaycan Silahlı Qüvvələrinin giziri, Aprel döyüşlərinin (2016) şəhidi Pəncəli Teymurovun Ev-Muzeyinə baş çəkiblər. Ziyarətçilər qəhrəmanın şəxsi əşyaları ilə tanış olublar.

Kollecin direktoru şəhid atası, professor K.Kazımov xatirə kitabına öz ürək sözlərini yazıb. Bildirilib ki, Vətən, torpaq yolunda şəhid olmaq ən böyük şərəf və qürurdur. Pəncəli Teymurov da belə bir ölməzlik qazanıb.

Xatırladaq ki, şəhid gizir Pəncəli Teymurov 1981-ci ilin martın 24-də Astara rayonunun Əzərüd kəndində dünyaya göz açıb. Xüsusi Təyinatlı Qüvvələrin kəşfiyyatçı taborunda qulluq edib. 17 il doğma Vətəninə ləyaqətlə xidmət göstərib. Xüsusi təyinatların əfsanəsi olan Pəncəli Teymu-



rov ömrünün 35-ci baharında, tarixi Zəfərimizin ilk müjdəsi sayılan Aprel döyüşlərində düşmənə qan uddururaq şəhidlik zirvəsinə ucalıb. Ölümündən sonra "İgidliyə görə", "Vətən uğrunda" medallarına layiq görülüb.

**Zəfər Orucoğlu**

# Şuşaya köç davam edir

İyunun 12-də növbəti köç karvanı ilə Şuşa şəhərinə çatan ailələrə yeni mənzillərinin açarları təqdim olunub. Bu dəfə 21 ailə (85 nəfər) Şuşa sakini doğma yurduna qovuşub.

Açarların təqdim olunma mərasimində Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İcraçı direktoru Tural Novruzov, Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin və Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.

Ailələr sevinc hissi ilə yeni mənzillərin qapılarını açıblar.

Bununla da Şuşa şəhərində 126 ailənin (491 nəfər) daimi məskunlaşması təmin edilib.

***

Bu arada Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və Azərbaycan Respublikası Prezidentinin Laçın rayonunda Xüsusi Nümayəndəliyi bir neçə gündür yağan intensiv yağışlar nəticəsində rayonun Zabux və Sus kəndlərində yaşayış sahələrinə ziyan dəyməsi barədə birgə məlumat yayıb. Qeyd edilib ki, yağış nəticəsində kənd ətrafı dağ massivindən gələn sel suları bəzi evlərin zirzəmisinə dolub.

Prezidentin xüsusi nümayəndəsi Məsim Məmmədov, Dövlət Komitəsinin sədri Rövşən Rzayev və aidiyyəti qurumların nümayəndələri əraziyə gediblər, təbii fəlakətin nəticələrinin ən qısa zamanda aradan qaldırılması məqsədilə əlaqələndirilmiş qaydada zəruri tədbirlər görülür.

# Yuğ teatrının “Mənəm, mən”i Daşkənd səhnəsində

Daşkənddə keçirilən Azərbaycan Mədəniyyəti Günlərinin zəngin proqramında Azərbaycan teatr sənətinə də yer verilib.



İyunun 12-də Azərbaycan Dövlət Yuğ Teatrının kollektivi Özbəkistan Dövlət Sənət və Mədəniyyət İnstitutunun (ÖDSMİ) səhnəsində “Mənəm, mən” tamaşasını nümayiş etdirib.

Səhnə əsərini ÖDSMİ-nin professor-müəllim heyəti və tələbələri, qardaş ölkənin mədəniyyət, incəsənət xadimləri izləyiblər.

Nümayişdən əvvəl bildirilib ki, Beynəlxalq Muğam Mərkəzinin direktoru Əməkdar artist Sahib Paşazadə ÖDSMİ-nin fəxri professoru adına layiq görülüb. Tarzənə fəxri professor diplomu təqdim olunub.

Sonra tamaşa göstərilib.

Yazıçı-dramaturq İlqar Fəhminin əsəri əsasında 2019-cu ildə, mütəfəkkir şair İmadəddin Nəsiminin (1369–1417) 650 illiyi münasibətilə hazırlanan tamaşaya Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə quruluş verib. Tamaşanın rəssamı Vüsal Rəhim, bəstəkarı Xalq artisti Aygün Səmədzadə, plastik həllin müəllifi Ceyhun Dadaşovdur.

Janrı mistik-psixoloji dram kimi təyin edilən tamaşa Azərbaycan Dövlət Yuğ Teatrı və Türk Mədəniyyəti və İrsi Fondunun birgə layihəsi əsasında ərsəyə gətirilib.

Tamaşada Xalq artisti Məmmədsəfa Qasımov, Əməkdar artist Qasım Nağı, aktyorlar Əbdülqəni Əliyev, Ziya Ağa, Amid Qasımov, Vüqar Hacıyev, Elgün Həmidov, Elşən Əsgərov və Famil Quliyev iştirak ediblər.

Səhnə əsərində hürufilik anlayışı elm, eşq, ilahi yazı və övliyalıq kimi tamaşaçıya təqdim olunur. Kollektiv fərqli zaman və məkan anlayışlarını səhnədə cəm etməklə özbək tamaşaçıları Nəsiminin dövrü, eşqi, kədəri, sevinci, həqiqəti, ölümü və ölümsüzlüyü ilə tanış ediblər.

**Fariz Yunisli**
**Daşkənd**

# Muzey Mərkəzində “Təbiətin rəngləri”

”Yaşıl dünya naminə həmrəylik ili”nə öz töhfəsini verən sənət ocaqlarından biri də ”KamART” incəsənət qalereyasıdır. 11-12 iyun tarixlərində Muzey Mərkəzinin sərgi qalereyasında ”KamART”-ın gənc rəssamlarının yaradıcılığına həsr olunmuş ”Təbiətin rəngləri” adlı sərgi keçirilib.



Ekspozisiyada 6-19 yaşında 31 müəllifin ümumilikdə 91 əl işi nümayiş etdirilib. Sənət hesabatı kimi təqdim olunan rəsmlər 2023–2024-cü tədris ilini əhatə edir.

Açılışda çıxış edən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin baş müəllimi Kəmalə Cəfərzadə qonaqları salamlayaraq sərgi haqqında məlumat verib.

Bildirib ki, sərginin məqsədi təbiətə sevgi aşılamaq, ictimaiyyətin diqqətini uşaq və gənclərin təsviri sənətə olan marağının artırılmasına və inkişafına yönləndirmək, istedadlı gənc rəssamları üzə çıxarmaq və onlara dəstək verməkdir.

Xalq rəssamı Arif Hüseynov sərgi iştirakçılarını təbrik edib, onlara yaradıcılıq uğurları arzulayıb. Vurğulayıb ki, rəsm çəkmək uşaqların yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir, onların zövqünün və dünyagörüşünün inkişafına müsbət təsir göstərir.

Sərginin açılışında Milli Konservatoriyanın nəzdində İncəsənət Gimnaziyası Xoreoqrafiya şöbəsinin şagirdləri və Səid Rüstəmov adına 13 nömrəli Uşaq musiqi məktəbi şagirdlərinin ifaları da maraqla qarşılanıb.

Çıxışlardan sonra sərgi iştirakçılarına diplomlar təqdim olunub.

**Lalə Azəri**

# Bülbül müsabiqəsi – qalibləri tanıyaq

*əvvəli səh. 1-də*

### Sevimli Arlanın anası Leyla



Biz Şuşaya gedəndə avtobusda maraqlı sürprizlə rastlaşdıq. Gənc bir xanımın qucağında balaca, toppuş oğlan var idi. Gördüyü hər şeyi, hər kəsi maraqla seyr edir, tanımadığı adamların ona ünvanlanan nəvazişinə ciddi baxır, onu dindirənlərə xəsisliklə gülümsəyirdı. Tanış oluruq: 1 yaş 2 aylıq igidin adı Arlandır, Qazaxıstandan olan iştirakçılar Sultan Bakıtjan və II mükafatın sahibi Leyla Alamanovanın oğludur. Leyla hələ də sərbəst yeriməyən və danışmayan övladı qucağında müsabiqəyə qatılıb və II mükafatı qazanıb:

– Hazırda Astana Beynəlxalq Opera Akademiyasında təhsilimi bitirmək üzrəyəm. Bundan əvvəl dörd il İtaliyada yaşamışıq. Əvvəlcə Pezaro şəhərindəki Rossini Konservatoriyasında magistr təhsili almışıq, sonra da Ozimo şəhərində vokal akademiyasında oxumuşuq. Çox böyük pedaqoqlardan dərs almışıq. Arlan Ozimoda dünyaya gələndən bir neçə ay sonra Qazaxıstana qayıtdıq. Astana Beynəlxalq Opera Akademiyasına daxil olduq. Həyat yoldaşım artıq Astana Opera və Balet Teatrının solistidir. Ümid edirəm ki, mən də tezliklə teatrda solist olaraq çalışmağa başlayacağam.

*– Siz İtaliyada tanış olmusunuz?*

– Astanada universitetdə oxuyanda tanış olmuşuq. Təhsilimizi bitirən kimi evləndik və İtaliyaya getdik. İndi birlikdə tamaşalarda, konsertlərdə çıxış edirik.

*– Arlan da sizi hər yerdə müşayiət edir. Bakıdan Şuşaya və geriyə təxminən yeddi saatlıq yoldur. Göz dəyməsin, Arlan özünü çox yaxşı, təmkinlə apardı…*

– Oğlum biraylıq olanda mən artıq səhnədə idim. O bizimlə az qala bütün Qazaxıstanı gəzib, hətta İtaliyaya da gedib. Düzdür, valideynlərimiz bizə çox kömək edirlər. Bu dəfə də atam bizimlə Bakıya gəlmişdi. Müsabiqə başa çatanadək Arlanla daha çox o, vaxt keçirdi ki, mənim fikrim yarışmadan yayınmasın. Valideynin yanında rahat olursan, bilirsən ki, qayğını çəkən var.

*– Müsabiqə sizin üçün necə keçdi?*

– Müsabiqə çox yaxşı təşkil olunmuşdu. Çox güclü səslər yığışmışdı Bakıya. Düzdür, bu dəfə Sultanın bəxti gətirmədi, ikinci tura keçə bilmədi. Azərbaycan o qədər xoşumuza gəldi ki, özümüzü doğma məkanda hiss etdik. Elə bil ki, ölkənizdə dəfələrlə olmuşuq. İnsanlar çox qonaqpərvər, Bakı, Şuşa çox gözəldir. Ümid edirik ki, tezliklə yenə yolumuz Bakıya düşəcək.

### Kler xanım üçün kompliment

Qran-pri mükafatçısı, kanadalı Kler Kulen (soprano) müsabiqə boyu təkcə səsi, mükəmməl ifa tərzi ilə seçilmədi. Yaşıl gözləri nefrit kimi bərq vuran bu qıvrımsaçlı yaraşıqlı qız həm də sakit təbiəti ilə yadda qaldı. Bəlkə də fikirləşərsiniz ki, ünsiyyət məhdudiyyəti var idi, ona görə. Amma yox. Finalçıların, demək olar ki, hamısı ingiliscə, italyanca sərbəst danışırdı. III yeri qazanmış Yuliya Sitnikova isə sanki Klerin tərcüməçisi idi. Elə Klerdən müsahibəni də Yuliyanın köməyi ilə aldıq.

*– Kler, əvvələn, sizi bu qələbə münasibətilə təbrik edirəm.*

– Çox sağ olun.

*– Üstəlik, siz indiyədək Bülbül adına müsabiqədə ən uzaqdan gələn ilk iştirakçısınız. Müsabiqə barədə haradan və necə məlumat aldınız?*



– Anam Yusif Eyvazovun pərəstişkarıdır. Onun sosial şəbəkə hesablarını izləyir. Yusif Eyvazov müsabiqə barədə öz hesabında yazmışdı; anam da mənə təklif etdi ki, özünü sına. Müsabiqə barədə məlumat toplayandan sonra qərara gəldim ki, özümü sınayım.

*– Təxminən hansı mükafatı qazanmağı düşünürdünüz?*

– Əslində, fikirləşdim ki, yaxşı hazırlaşım, nə olacaqsa, o da olacaq. Qran-priyə gəlincə, bu, mənim üçün çox yaxşı sürpriz oldu.

*– İndiyədək müsabiqədə iştirak etmişdiniz?*

- Bəli, bir neçə müsabiqəyə qatılmışam, mükafat da qazanmışam. Amma Bülbül müsabiqəsindəki Qran-pri mənim ən böyük qələbəmdir.

*– Harada təhsil almısınız, hansı teatrda çalışırsınız?*

– ABŞ-də Manhetten Musiqi Məktəbində (adı məktəb olsa da, dünyanın ən güclü konservatoriyalarından sayılır - müəl.) təhsil almışam. Neçə ildir ki, Milanda yaşayıram. Avropanın bir neçə opera teatrı ilə müqaviləm var. Amma son zamanlar Şanxay Böyük Teatrında daha tez-tez çıxış edirəm.

*– Bakı, Azərbaycan barədə təəssüratınızı bilmək istərdim?*

– Təəssüf ki, Yusif Eyvazovla şəxsən söhbət etmək imkanım olmadı (gülür). Müsabiqə günlərində Bakını gəzməyi çatdırmadım, sadəcə, yeməklərinizdən böyük zövq aldım. Amma Şuşanın təbii gözəlliklərini görəndən sonra bir neçə gün də Bakıda qalıb istədiyim qədər şəhəri gəzəyəcəm.

*– Kler, indiyədək sizə deyiblər ki, gözlərinizdən və baxışınızdan Vivyen Liyə (görkəmli İngiltərə və ABŞ kino və teatr aktrisası) bənzəyirsiniz?*

– Oooo... İndiyədək belə gözəl kompliment heç eşitməmişdim…

***

### “Bakıda son tikəni, axırıncı qəpiyi də sənə verərlər…”

III mükafatı qazanmış Yuliya Sitnikova da həvəslə suallarıma cavab verir:

– İlk dəfədir ki, sənət yarışında laureat adı qazanıram. Müsabiqələrdə iştirak adamdan xüsusi emosional ovqat tələb edir. Mən açılışda Yusif Eyvazovun iştirakçılara psixoloji dəstəyini hiss edəndə ürəkləndim. Çünki məndən ötrü bütöv tamaşanı oxumaq, həmin operadan ariyanı ayrıca oxumaqdan daha rahatdır. Bu dəfə qarşımda heç bir dəqiq məqsəd qoymamışdım. Öz-özümə demişdim ki, mən salona toplaşanlar üçün oxuyacağam və musiqidən zövq alacağam. Demə, müsabiqədə ən düzgün iştirak üsulu elə bu imiş.

*– Yuliya, harada təhsil almısınız, ustadınız kimdir?*



– Qalina Vişnevskayanın Opera İfaçılığı Mərkəzində Maklava Kasraşvilidən dərs almışam. Hazırda P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında yenə onun sinfində staj keçirəm. Nijeqorod Opera və Balet Teatrının solistiyəm. Müsabiqə ərəfəsində “Gelikon-Opera”nın gənclər proqramında dinləmədən uğurla keçdim. Qarşıdakı teatr mövsümünü həvəslə və həyəcanla gözləyirəm.

*– Lap yaxşı. Nə qədər özünüzü sakitləşdirsəniz də, hər halda, Bakıya gəlişinizdən gözləntiniz var idi…*

– Mən fikirləşmişdim ki, müsabiqə öz yerində, həm də mövsüm ərzindəki gərginliklərdən sonra bir qədər dincələrəm. Müsabiqəni fikirləşə-fikirləşə Bakını gəzərəm, ləzzətli yeməklər, ən əsası, paxlava yeyərəm. Sizin paxlavanın bütün növlərindən ötrü ürəyim gedir.

*– Bakıda sizi ən çox təsirləndirən nə oldu?*

– Bu şəhərdə hər kəs köməyə gəlməyə hazırdır. Bir tanışımla görüşməliydim. Avtobus dayanacağında xəritəyə baxıb yanımdakı qadından soruşdum ki, ora necə gedə bilərəm? Məlum oldu ki, avtobus kartla işləyir, mənim isə yalnız nağd pulum var. Həmin qadın mənim avtobusumu gözlədi, məni avtobusa mindirib gediş haqqımı da ödədi və düşdü… Mən bilirəm ki, ödənilən pul böyük məbləğ deyildi, amma hər halda, bu, xeyirxahlıq, qonaqpərvərlik jesti kimi yadımda qaldı. Bakıda hərdən mənə elə gəlirdi ki, istəsəm, adamlar son tikələrini, axırıncı qəpiklərini mənə verərlər, heç arxasını düşünməzlər.

### “Bu, mənim ilk və son müsabiqəmdir”



Müsabiqənin diplomantı Nadejda Meyer incə görkəminə yaraşan tərzdə nazla danışır, danışanda da üzündən təbəssüm əskik olmur.

– Həştərxan Opera və Balet Teatrında işləyirəm. Həştərxandan Bakıya birbaşa təyyarə reysi də var ki, bu şərt mənim səfərimi xeyli asanlaşdırdı..

*– Nə yaxşı…*

– Həştərxanın ən iri küçələrindən biri Heydər Əliyevin adını daşıyır. Şəhərdəki xeyli azərbaycanlı ilə şəxsi tanışlığım da var.

*– Deməli, Bakıya gəlməmişdən öncə müəyyən təəssüratınız formalaşıb. Əvvəllər hansısa müsabiqədə iştirak etmisiniz?*

– Yox. Bu müsabiqə mənim ilk və son müsabiqəmdir.

*– İlki başa düşdük, amma niyə son?*

– Mən yarışmağı sevmirəm, tamaşaçı üçün oxumağı sevirəm. Fikirləşirdim ki, Bakıya gələcəyəm, müsabiqədə iştirak edəcəyəm, özüm kimi gənc vokalçılarla tanış olacağam, Bakını gəzəcəyəm, milli yeməklərinizin dadına baxacağam, vəssalam. Amma turdan tura keçə bilməyim özüm üçün də sürpriz oldu. Azərbaycan dilində “Ulduz” romansını oxudum. Konsertmeyster Rebeka Maqomedova (müsabiqənin şərtinə görə, konsertmeystersiz gələn iştirakçılara akompanianator təyin edilir - müəl.) ilə ilk dəqiqədən elə gözəl anlaşdıq. Üçüncü tura keçəndən sonra anladım ki, qələbənin bir addımlığındayam, xoşbəxtəm. Ürəyimdə dedim ki, üçüncü turda yalnız tamaşaçılar üçün oxuyağacam: gözəl musiqidən həm özüm zövq alacağam, həm də onlara bu zövqü yaşadacağam, heç münsiflər tərəfə də baxmayacağam.

### Aleksey üçün “Ulduz”



Aleksey Yurkovski N.A.Rimski-Korsakov adına Sankt-Peterburq Konservatoriyasının məzunudur. Nijeqorod Opera və Balet Teatrının solistidir.

– Çox şadam ki, bəxtimə Bülbül müsabiqəsində iştirak şansı düşdü. Mən öz konsertmeysterim Natalya Zaytseva ilə gəlmişdim. Bayaq Nadyanın, digər iştirakçıların müsabiqə, Bakı, azərbaycanlılar haqqında söylədikləri xoş fikirləri dəstəkləyirəm. Səhnəyə çıxanda heç müsabiqə həyəcanı hiss etmədim.

*– Siz “Ulduz” romansının ifasına görə mükafat aldınız...*

– Bəli, II turda Bülbülün repertuarındakı Azərbaycan bəstəkarlarının bir əsərini oxumalıydıq. Mən “Ulduz” romansını seçdim. Əsər mənim çox xoşuma gəlmişdi. Müsabiqədən sonra münsiflər heyətinin üzvü Dinarə Əliyeva mənə dedi ki, indiyədək müsabiqənin heç bir əcnəbi iştirakçısı bu romansı belə düzgün ifa etməyib.

*– Qala-konsertdə necə, “Ulduz”u ifa edəcəksiniz?*

– Təəssüf ki, mənim konsertmeysterim artıq Bakını tərk edib. Amma qərara gəlmişəm ki, “Ulduz” mənim repertuarımda qalacaq, onu konsertlərdə ifa edəcəyəm.

***

### “Sevgili canan” ürəyimdə qalmışdı…

Mariinski Teatrının Vladivostok səhnəsinin solisti Samirə Həlimova ilə həmsöhbət olana qədər onun soyadını Qalimova kimi yazmışdım. Bu da təbiidir. Simasından türk olduğu bilinən vokalçının həm tatarlar, həm də başqırdlar arasında geniş yayılmış bu soyadın daşıyıcısı olması təbii idi. Amma IV mükafatın laureatı Samirə söhbətə elə məqamdan başladı…

– Sankt-Peterburqda doğulub böyümüşəm. Atam azərbaycanlı, anam başqırddır.

*– Ay, nə gözəl! Bəs soyadınız?...*



– Atam Qəbələdəndir, soyadı da Həlimov. Sadəcə, rus dilində onu Qalimov yazaraq başqırd soyadına oxşadıblar.

*– Belədə güman edə bilərəm ki, sizin Azərbaycan musiqisi, Bülbül haqqında məlumatınız əvvəldən olub?*

– Əlbəttə! Təxminən yeddi il olar ki, müsabiqə haqqında məlumatlıyam. Atam da Bülbül haqqında xeyli danışmışdı deyə müsabiqəyə qatılmağa çox həvəsliydim. Hətta iki dəfə müraciət etmişdim, amma keçə bilməmişdim. Bu, mənim üçüncü cəhdim idi.

*– Atalar üçdən deyib…*

– Hə, üçüncü cəhdim mənə uğur gətirdi, qismət indiyə imiş. Bilirsiniz, mən bir dəfə də Müslüm Maqomayev adına müsabiqəyə qatılmışdım. Orada da ikinci turda Azərbaycan bəstəsi oxumaq lazım idi. Mən də “Sevgili canan”ı öyrənmişdim. Təəssüf ki, ikinci tura keçə bilmədim deyə, romansı səhnədən oxumaq arzum ürəyimdə qaldı. Bu dəfə də “Sevgili canan”ı proqrama saldım. Qarşıma məqsəd qoymuşdum ki, ən azı, II tura çıxıb “Sevgili canan”ı auditoriya qarşısında oxumalıyam! Axır ki, arzuma çatdım!...

*– Teatrda işləriniz necədir?*

– Üç ildir ki, Vladivostokda işləyirəm. Mən teatra gələndə repertuarda “Yarasa” operettasının adını görəndə, öz-özümə dedim ki, Allah eləməsin, məni bu tamaşaya daxil etsinlər. Çünki əsərdə danışıq, rəqs də çoxdur, mənim də təcrübəm az, necə bacararam? Amma qorxduğum başıma gəldi: teatra qəbul olunan kimi məni “Yarasa”da Adel roluna təsdiq etdilər. Tamaşa repertuarda olduğundan cəmi üç məşqdən sonra səhnəyə çıxdım.

*– Bəs indiyədək hansısa müsabiqədə iştirak etmisiniz?*

– O qədər… Sayını itirmişəm. Ötən il Lemeşov adına müsabiqədə birinci oldum. Amma beynəlxalq səviyyədə ilk böyük qələbəmi indi qazanıram.

*– Deməli, yarışmağı sevirsiniz?*

– Müsabiqədə, ilk növbədə, özünə, öz qorxularına qalib gəlirsən, yeni dostlar tapırsan, hətta deyərdim ki, adamın əsəbləri də möhkəmlənir.

*– Sizə uğurlar! Qələbə sorağınız digər müsabiqələrdən gəlsin!*

– Təəssüf ki, laureat olduğun müsabiqədə təkrar iştirak etmək olmaz. Yoxsa, yenə Bülbül müsabiqəsinə qatılardım.

### Stepan bizim kürəkən imiş

Birinci mükafatın iki sahibindən biri D.Şostakoviç adına Samara Opera və Balet Teatrının solisti Stepan Volkov ilə tanışlıq da sürprizsiz ötüşmədi.

– Bülbül adına müsabiqədə iştirak etmək və qalib gəlmək mənim üçün çox şərəflidir. Məni həvəsləndirən həyat yoldaşım oldu. Bilirsiniz, yoldaşım azərbaycanlıdır. Onun vətənində olmaq, ona doğma olan musiqini, mədəniyyəti daha yaxından tanımaq arzum idi. Bu müsabiqədə qələbəmi Azərbaycana, bir də həyat yoldaşıma həsr edirəm.

Stepan həyat yoldaşını təqdim edən kimi, müsahibənin istiqaməti dəyişir və onlar suallarıma ikilikdə cavab verirlər.

**Yekaterina:** Mən, Yekaterina Məmmədova, Stepanın həyat yoldaşıyam. Atam Kürdəmirin Mollakənd kəndindəndir. Ovaxtkı SSRİ-də hərbi xidmətini Rusiyada keçəndə bir rus qızı ilə tanış olub, bir-birlərini sevib evləniblər. Həmin nikahdan mən doğulmuşam. Atamın qohumları ilə çox yaxşı münasibətimiz, gediş-gəlişimiz var.



Çoxdan arzu edirdim ki, Stepan bu müsabiqəyə qatılsın. Bu həm də mənim daşıyıcısı olduğum mədəniyyətə bir qədər də yaxınlaşmaq deməkdir. Müsabiqənin ikinci turunda Stepan “Ulduz” romansını oxuyanda onun çıxışını çəkib atama, bütün ata qohumlarıma göndərdim. Dil mühitim olmadığından, evdə Azərbaycan dilində danışmadığımız üçün dili bilməsəm də, özümü ruhən, qəlbən azərbaycanlı hesab edirəm.

*– Stepan, deyəsən, “Ulduz” romansının üzərində çalışmaq sizə çətin olmayıb?*

– Ata mənə çox kömək etdi, mətni başa saldı, tələffüzüm üzərində çalışdı. Maraqlıdır ki, peşəkar musiqiçi, müğənni olmasa da, hətta hansı saiti, hansı samiti necə tələffüz etmək lazım olduğunu da aydın izah etdi.

*– Bəs siz necə tanış olmusunuz?*

**Stepan:** Teatrda. Beş ildir ki, ailəliyik.

**Yekaterina:** Mən Samara Opera və Balet Teatrında bədii rəhbərin köməkçisiyəm. Teatr menecmenti üzrə təhsil almışam. Orta musiqi təhsilim də var. Əsasən prodüserlik fəaliyyəti ilə məşğul oluram.

***

Vokalçıların Bülbül adına IX Beynəlxalq Müsabiqəsi artıq tarixi fakta çevrildi. Ölkəmizə yaxın-uzaq xaricdən təşrif buyurmuş, Azərbaycanı mükafatla, yaxud əliboş tərk edən iştirakçıların yaradıcılıq bioqrafiyasında özünəməxsus yer tutacaq. Ümidvarıq ki, nailiyyətindən asılı olmayaraq, hər kəs Bülbül müsabiqəsini düşünəndə belə bir etiraf etsin: Nə yaxşı ki, yolum Bakıdan düşdü...

**Gülcahan Mirməmməd**
**Şuşa – Bakı**

**P.S.** *Müsabiqədə iki I yerdən birini tutmuş və “Ən yaxşı tenor” mükafatına layiq görülmüş vokalçımız, Akademik Opera və Balet Teatrının solisti Atəş Qarayevlə də söhbətləşməyi unutmamışıq. Qəzetimizi izləyin.*

# "44 gün – tarixi Zəfər" kitabının Şəkidə təqdimatı



İyunun 12-də Şəki şəhər Heydər Əliyev Mərkəzində Mədəniyyət Nazirliyinin "Xatirə kitabı" redaksiyası tərəfindən Vətən müharibəsində həlak olanların adlarının əbədiləşdirilməsi üçün hazırlanan "44 gün – tarixi Zəfər" kitabının I və II cildinin təqdimatı keçirilib.

Şəhid ailələri üzvlərinin, şəhər İcra Hakimiyyətinin nümayəndələrinin iştirak etdiyi tədbirdə 2020-ci ilin 44 günlük Vətən müharibəsində, eləcə də Ermənistan silahlı qüvvələri birləşmələrinin Qarabağda törətdikləri genişmiqyaslı təxribatların qarşısının alınması məqsədilə keçirilən lokal xarakterli antiterror tədbirlərində müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı tarixi Zəfərdən, döyüşlərdə Vətənimizin igid oğullarının göstərdikləri qəhrəmanlıqdan danışılıb.

Kitabın baş redaktoru Nəzakət Məmmədova bildirib ki, I cilddə 2016-cı ilin Aprel döyüşləri və Tovuz döyüşləri (2020) zamanı həlak olanların da adları əbədiləşdirilib. Kitabın I və II cildində ümumilikdə 2 minə yaxın şəhid haqqında ensiklopedik məlumat yer alıb.

Diqqətə çatdırılıb ki, "Respublika Xatirə Kitabı"nın indiyədək 20-yə yaxın cildi çap olunub. Kitablarda İkinci Dünya müharibəsində, Əfqanıstan döyüşlərində, 20 Yanvar faciəsində, Xocalı soyqırımında, Qarabağ müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə həlak olmuş, itkin düşmüş, əsir götürülmüş vətəndaşlarımız, Milli Qəhrəmanlar haqqında əhatəli materiallar dərc edilib. Redaksiya, eyni zamanda, "Vətən daşı... və ya 44 günün dastanı" adlı layihə əsasında 8 sənədli film çəkib. Filmlər geniş ictimaiyyətə təqdim olunub.

Tədbirin sonunda şəhid ailələrinə "44 gün – tarixi Zəfər" kitabı hədiyyə edilib.

## Foto-yaddaş

45 il əvvəl, 15 iyun 1979-cu ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında böyük bəstəkar Fikrət Əmirovun "Min bir gecə" baletinin ilk tamaşası olub.

Baletin librettosunu "Min bir gecə" nağılları əsasında Maqsud və Rüstəm İbrahimbəyovlar yazmışdı. Xoreoqrafik quruluşu Nailə Nəzirova, səhnə tərtibatını Toğrul Nərimanbəyov vermişdi. 1980-ci ildə baletin yaradıcıları (bəstəkar, baletmeyster, rəssam, baş rolların ifaçıları) SSRİ Dövlət mükafatına layiq görüldülər.

1981-ci ildə balet SSRİ-nin baş səhnəsində – Moskvada, Kreml Sarayı səhnəsində nümayiş olundu.

***

**Fotoda (soldan sağa):** Azərbaycan SSR-in Xalq rəssamı Toğrul Nərimanbəyov; SSRİ-nin Xalq artisti Fikrət Əmirov; Azərbaycan SSR-in Əməkdar incəsənət xadimi Nailə Nəzirova; Azərbaycan SSR-in Əməkdar artisti Rafael Qriqoryan (Şəhriyar); Azərbaycan SSR-in Xalq artisti Tamilla Şirəliyeva (Şəhrizad) Kreml səhnəsində tamaşadan sonra.

*Azərbaycan Respublikası Kino Foto Sənədləri Arxivi (inventar N 149336)*



### Kreml səhnəsində "Min bir gecə"

# Poeziyamızın çağlayan şairi

Azərbaycan poeziyasının klassik ənənələrini sevərək yaşadan ədiblərimizdən biri də tanınmış şair, yazıçı, Əməkdar incəsənət xadimi Rəfiq Zəka Xəndan olub. Görkəmli ədib dolğun yaradıcılıq fəaliyyəti ilə poeziyamıza gözəllik bəxş edib. Yaradıcılığının əsas istiqamətləri isə milli-mədəni dəyərlərə bağlılıq və istiqlal ideyalarının tərənnümü olub.

Bu il şairin anadan olmasının 85 illiyidir.

Rəfiq Zəka Xəndan (Rəfiq Hacıyev) 16 iyun 1939-cu ildə Bakıda, görkəmli ədəbiyyatşünas Cəfər Xəndanın ailəsində dünyaya göz açıb. Erkən çağlardan poeziyaya maraq göstərib. Onu şeirə, sənətə ilhamlandıran isə M.Ə.Sabir, H.Cavid, M.Müşfiq, M.Hadi və türk şairi Əbdülhəq Hamidin yaradıcılığı olub.

1962-ci ildə M.Müşfiqə həsr olunan "Çağlayan" adlı ilk şeirlər kitabı işıq üzü görür. Müşfiq sağ ikən bu adda bir kitab çap etdirmək istəyib. Rəfiq Zəka da nakam şairin arzusunu bu adla əbədiləşdirib. Müşfiqə həsr etdiyi bir şeirində yazır:

*Səni ömrüm boyu gərək səsləyim,*
*Məhəbbət bəsləyim, könül bəsləyim,*
*İlhamım sənindir, şeirim sənindir*
*Sənsən ülviliyim, müqəddəsliyim.*



Onun şeirlərində maraqlı ritm var, həzin, kövrək bir duyğu çağlayır. Soy-kökə, türkçülüyə böyük məhəbbətlə tərənnüm olunur. Şair M.Hadinin "Əlvahi-intibah" ("İntibah lövhələri") əsərinə eyniadlı şeir həsr edib:

*Vətənpərvər, hünərpərvər,*
*zəfərpərvər vətəndaşdın,*
*Azərbaycana aşiqdin*
*əsil övlad şəklində.*
*Şəhid şairləri bir-bir*
*gətirdim xatirə, baxdım,*
*Zavallı görmədim, əfsus*
*Məhəmməd Hadi şəklində...*

Rəfiq Zəka Xəndanın şeirlərinin məziyyəti, cazibədarlığı həm də onların musiqi, mahnı çalarındadır. Təsadüfi deyil ki, Rəfiq Zəkanın bir çox şeirlərinə mahnı bəstələnib. Xalq şairi Hüseyn Arif onun haqqında demişdi: "Rəfiq Zəkanın şeirlərində həzin bir musiqi dolaşır".

Xalq yazıçısı Mirzə İbrahimov onun haqqında yazırdı: "Rəfiq Zəka əlinə qələm aldığı gündən gənclik ehtirası ilə şeir və gözəllik məftunu olduğunu sübut edib. Onun şeirlərində canlı xalq dilinə bağlılıq, axıcılıq və səlislik nəzərə çarpır. Hafizəsinin kəskinliyini, zəngin Şərq ədəbiyyatını dərindən duyduğunu, sənət haqqında ehtirasla düşüncələrə malik olduğunu görməmək mümkün deyil".

Məhz buna görə şairin adı Türk dünyasında dolaşıb, əsərləri sevilib. Ötən əsrin 80-ci illərində hələ sovet quruluşunun çətinlik və qorxuları var ikən şairin türkçülüyü bir cəsarət nümunəsi idi.

*Necə şeirimdə görüb türk sözünü,*
*Vay dədə, vay deyə yumdun gözünü.*
*Yerə soxdun öz əlinlə özünü,*
*Öz-özündən niyə ürkürsən sən,*
*Türk sözündən niyə ürkürsən sən?!*

Rəfiq Zəka yaradıcılığında "türk" sözü milli-mədəni dəyərə söykənərək türklük məfkurəsinin zəngin tarixini göstərir:

*Düşmənlərimiz bizlərə*
*türk söyləmiş ancaq,*
*Türkəm deməyən*
*yurddaşımız düşmənimizdir!*
*Düşməz yerə türkün*
*göyə yüksəltdiyi sancaq,*
*Türkün göyə yüksəltdiyi*
*sancaq şanımızdır!*

Müstəqillik dövründə şair dəfələrlə Türkiyənin bir çox şəhərlərində keçirilən elmi-ədəbi tədbirlərə qatılıb. Çıxışları maraqla qarşılanıb. O, həmçinin Azərbaycan-Türkiyə ədəbi əlaqələrinin inkişafında mühüm rol oynayıb. Türkiyə mətbuatı səhifələrində azərbaycanlı şair və yazıçılar haqqında maraqlı yazılar dərc etdirib. Türkiyədə kitabları çap olunub.

Ədəbiyyatşünas kimi də tanınan Rəfiq Zəkanın 1962-ci ildə çap olunan "Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri" monoqrafiyası görkəmli satira ustadının bədii irsinin öyrənilməsinə dəyərli töhfədir. O, pedaqoji sahədə də fəaliyyət göstərib, Mədəniyyət və İncəsənət Universitetində estetikadan dərs deyib.

Araşdırmalarda şairin iti hafizəsindən də bəhs edilir. Qeyd edilir ki, o, Azərbaycan poeziyasının ən dəyərli nümunələri ilə yanaşı, türk şairi Əbdülhəq Hamidin 5 min misralıq "Məqbər" poeması əzbər bilib. Tərcümə sahəsində də qələmini sınayıb.



Bəstəkarlar şairin 300-dən çox şeirinə müraciət edib. Sözlərinə bəstələnən "Ana Kür", "Səadət", "Qarabağım" mahnıları bu gün də müğənnilərin repertuarını bəzəyir.

Azərbaycan ədəbiyyatına sonsuz sevgisi ilə tanınan Rəfiq Zəka Xəndan 7 yanvar 1999-cu ildə vəfat edib.

**Savalan Fərəcov**

# Teatr fədailərimizdən – Böyükxan Naxçıvanski

Tariximizin, mədəniyyətimizin, ədəbiyyatımızın, musiqi və elmimizin elə bir sahəsi yoxdur ki, Naxçıvanda doğulub böyüyən şəxsiyyətlər orada öz sözlərini deməmiş olsunlar. Onlar harada çalışmağından asılı olmayaraq, Azərbaycan mədəniyyətinin, incəsənətinin, elminin, dövlətçiliyinin təşəkkülündə, inkişafında fədakarlıq göstərmişlər. Görünür, bu məsələ həm də zamanın tələbindən irəli gəlmişdir.

Yarandığı vaxtdan maarifçi düşüncənin cəmiyyətdə oturuşmasında, insanların estetik zövqünün formalaşmasında xüsusi rol oynamış Naxçıvan teatrı yüksək hazırlığa malik istedadlı əməkdaşları ilə ölkəmizdə teatr ənənələrinin zənginləşməsində yaxından iştirak etmişdir. Doğrudur, həmin sənətkarların çoxu nə mükəmməl sənət təhsili almış, nə də geniş şöhrət qazanan teatrların səhnəsində çıxış etmişlər. Onlar yalnız öz istedad və bacarıqları, səhnə sənətinə olan tükənməz məhəbbətləri ilə bu yolda böyük fədakarlıq göstərmişlər. Belə şəxsiyyətlərdən biri də Naxçıvan teatrının inkişafında mühüm xidmətləri olan və Təbrizdə milli peşəkar teatrın yaranmasında xüsusi əmək sərf edən Böyükxan Naxçıvanskidir.

***

1871-ci il aprel ayının 2-də Naxçıvan şəhərində məşhur Abbasqulu xanın ailəsində bir körpə dünyaya göz açır. O da el ənənəsi ilə şənlik düzəldib adqoyma mərasimi keçirir. Çağaya Abbasqulu xanın atası Nəzərəli xanın adı verilir. Lakin uşaqlıqdan Nəzərəli xana həmyaşıdları, ailəsi, bütün qohumları babası Nəzərəli xanın şərəfinə Böyükxan dediklərinə görə həmin dövrün bir çox sənədlərində "Böyükxan" yazılmış və mötərizədə "Nəzərəli xan" qeydi də əlavə edilmişdir. Buna görə də biz qəhrəmanımızdan elə Böyükxan kimi bəhs edəcəyik.

Böyükxan Naxçıvanski öz ailə mühitində təhsil almışdır. 35 yaşında, 1906-cı il may ayının 26-da Naxçıvan şəhər məktəbində imtahan verərək şəhadətnamə alır. O, müxtəlif illərdə Naxçıvan Qəza Polis İdarəsində dəftərxana xidmətçisi, Naxçıvan qəzasının 2-ci Polis şöbəsinin pristavı, 1912-ci ildən 1917-ci ilin fevral ayına kimi Naxçıvan şəhər başçısı vəzifəsində işləmişdir.

Təqdirəlayiq cəhət budur ki, XX yüzilliyin əvvəllərində Naxçıvanın qabaqcıl, savadlı, tərəqqipərvər ziyalıları Böyükxan Naxçıvanski ilə birlikdə maarif və mədəniyyət ocaqlarının açılmasına çalışır, xalqın mədəni tərəqqisində, siyasi oyanışında teatr tamaşalarına xüsusi üstünlük verir, teatr sənətini ideya və məfkurə silahına çevirib cəmiyyətdəki çatışmazlıqlara qarşı çıxır, insanları yeni amallar uğrunda mübarizəyə səsləyirdilər.

Böyükxan Naxçıvanski həm də səhnə sənətinə könül verənlərdən idi. 1901-ci ildən Naxçıvanda göstərilən tamaşalarda aktyor kimi çıxış etmişdi. 1904-cü ildən 1919-cu ilin avqust ayınadək isə burada tamaşaya qoyulan "Vəziri-xani-Lənkəran", "Molla İbrahimxəlil kimyagər", "Müsyö Jordan və dərviş Məstəli şah" (M.F.Axundzadə), "Pəri cadu", "Bəxtsiz cavan", "Dağılan tifaq", "Millət dostları", "Kimdir müqəssir?" (Ə.Haqverdiyev), "Müsibəti-Fəxrəddin", "Pəhləvanani-zəmanə" (N.Vəzirov), "Tatarka" (E.Sultanov), "Nadir şah" (N.Nərimanov), "Axşam səbri xeyir olar", "Dursunəli və Ballıbadı" (S.Qənizadə), "Ölü canlar" (N.Qoqol), "Zoran təbib" (J.B.Molyer) və s. əsərlərə quruluş vermiş, eyni zamanda bir sıra rollarda səhnəyə çıxmışdır.

***

1918-ci ildə ermənilərlə azərbaycanlılar arasında olan ədavəti yatırtmaq üçün Naxçıvan Müsəlman Milli Komitəsi yaradılır. Böyükxan Naxçıvanski də həmin komitənin üzvü seçilir. 1920-ci ilin aprelində XI Qızıl Ordunun Azərbaycanı işğal etdiyi zaman ölkənin bir çox yazarları, dövlət və ictimai xadimləri sovetləşmənin əleyhinə olduqlarına görə həbsxanalara salınırlar, bəziləri isə işğal və işgəncəyə etiraz əlaməti olaraq mühacirətə gedirlər. Bolşeviklərin bu qəddar hərəkətlərindən xəbərdar olan Naxçıvanın böyük nüfuza malik olan ziyalıları bolşeviklərin əleyhinə çalışırdılar. Onlardan biri də Böyükxan Naxçıvanski idi. Həmin dövrdə Naxçıvan Müsəlman Milli Komitəsi üzvlərinin də həyatı üçün təhlükə yaranmışdı. Bu səbəbdən onların bir çoxu Naxçıvanı tərk etmək məcburiyyətində qalmışdı. Naxçıvanda qalan, bolşevikləri dəstəkləməyən nüfuzlu şəxslər həbs edilirdilər. Həbs olunanlar içərisində böyük nüfuza malik olan Cəfərqulu xan və qardaşı Rəhim xan da var idi. Onlar Şuşa həbsxanasına göndərilmiş, 1943-cü ildə orada dünyasını dəyişmişdilər. Böyükxan Naxçıvanski bu mürəkkəb ictimai-siyasi şəraitdə Cənubi Azərbaycana üz tutmuşdu. O, bir daha Naxçıvana qayıtmamış və ömrünün sonunadək ailəsi ilə birlikdə Təbrizdə yaşamışdır.



Böyükxan Naxçıvanski burada "Naxçıvani" soyadını daşıyır. Cənubi Azərbaycanda yaşadığı illərdə Təbrizdə teatr hərəkatının yayılmasına və inkişafına nail olur. O zaman Azərbaycan ziyalılarının təşəbbüsü nəticəsində Təbrizdə "İslah və tərəqqi", "Cəmiyyəti-xeyriyyə" kimi bir sıra mütərəqqi ictimai qurumlar yaradılmışdı. Bu cəmiyyətlərdə "İslah və tərəqqi" cəmiyyətində tamaşaların hazırlanmasında yaxından iştirak edir. Eyni zamanda "Azərbaycan aktyorları heyəti" adlı müstəqil teatr cəmiyyətini yaradır.

***

1920-ci ilin sentyabr ayında Təbrizə gedən Cəlil Məmmədquluzadə yerli tərəqqipərvər adamları, orada fəaliyyət göstərən mühacir artistləri – Böyükxan Naxçıvanski, Əkbər Abbasov, Hacı Nəsirov, Əkbər Namazov, Cabbar Əmirov, Teymur Kəngərli və digərlərini "Molla Nəsrəddin" jurnalının nəşrinin davam etdirilməsi üçün vəsait toplamağa cəlb edir. "Cəmiyyəti-xeyriyyə" ilə "Ölülər" əsərini tamaşaya qoymaq üçün danışıqlar aparılır. Əsərin tamaşaya qoyulması çox da asan olmur. Bir tərəfdən Təbrizdə böyük nüfuz və səlahiyyətləri olan ruhanilər, digər tərəfdən şah mütləqiyyəti bu tamaşanın oynanılmasının əleyhinə idi. Cəlil Məmmədquluzadənin böyük fəaliyyəti, Hacı Məhəmməd Naxçıvaninin (o, Cənubi Azərbaycanın tanınmış ziyalılarından idi) köməkliyi ilə əsərin tamaşaya qoyulmasına icazə alınır. Hacı Məhəmməd Naxçıvani tamaşanın təhlükəsiz başa çatması üçün böyük səy göstərir. C.Məmmədquluzadənin razılığı ilə rollar bölünür. Məşq üç həftə ərzində C.Məmmədquluzadənin yaşadığı mənzildə aparılır.

Tamaşaya rejissorluğu böyük dramaturqun özü edir. Səhnə əsəri Əkbər Abbasovun kirayə götürdüyü teatr binasında 1 may 1921-ci il tarixində göstərilir. Təbrizdə "Ölülər" əsəri tamaşaya qoyularkən biletlər siyahı üzrə müəssisələrə və şəhərin görkəmli xadimlərinə Əsgərxan Qasımzadə tərəfindən verilirdi. Tamaşada ölülər dünyasının ittihamçısı olan İsgəndəri B.Naxçıvanski, Şeyx Nəsrullahı təbrizli ziyalı Əli Azəri, Hacı Baxşəlini təbrizli gənc Səməd Mövləvi, Kərbəlayı Fatmanı Liza, Nazlını Teymur Kəngərli, Məşədi Orucu Cabbar Əmirov, Cəlalı isə Midhət Məmmədquliyev oynayır.

Tədqiqatçı Mahmud Rəncbər Faqiri "Ölülər"in Təbrizdə tamaşaya qoyulması barədə yazır: "Əsgərxan biletləri Təbrizin bəzi məşhur adamlarına verirdi. Tamaşa yaxşı keçdiyi üçün həmin adamların hərəsi 10-15 tümən sonradan yolladılar. Muxbiri Səltənə 100 tümən pul verdi ki, aktyorlara paylasın. Münəvvər (Mirzə Cəlilin qızı – Ə.Q.) tamaşaya baxmaq üçün teatra getmək istəyirdi. Lakin o zaman Təbrizdə heç bir qadının teatra gedib tamaşaya baxmadığından o da mənzillərinə qayıtdı. Tamaşanın sakit keçəcəyini təsəvvür etməyən aktyorlar hətta özləri ilə tapança da götürmüşdülər...".

***

B.Naxçıvanski Təbrizdə müxtəlif teatr cəmiyyətlərində fəaliyyət göstərmiş və həmin cəmiyyətlərdə tamaşaya qoyulan əsərlərə rejissorluq etmiş, bir sıra səhnə əsərlərində müxtəlif rollarda oynamışdır. Onun təşəbbüsü ilə 1923-cü ildə Təbrizdə "Arin Teatr Cəmiyyəti" yaradılır və 19 nəfərdən ibarət üzvü seçilir. B.Naxçıvanski həmin cəmiyyətdə eyni zamanda müxtəlif teatr truppalarında rejissorluq fəaliyyətini davam etdirir. O təkcə bu cəmiyyətdə 58 tamaşaya quruluş vermişdir. B.Naxçıvanskinin vəfatından iki il sonra (1943) onun müəllifi olduğu "Hacı oğlu Yağbəstili" əsəri "İran" teatr dəstəsində Məhəmmədəli Rəşdinin quruluşunda tamaşaya qoyulur.

Almanlar tərəfindən 1925–1926-cı illərdə Təbrizdə "Şiri Xurşid" Teatr Cəmiyyəti üçün müasir üslubda zal tikilir. 1927-ci ilin fevral ayında Rza şahın iştirakı ilə "Şiri Xurşid tamaşa zalı"nın ("Ərk" teatrı") açılışı olur. Açılışda B.Naxçıvanski "İranda elm və mədəniyyətin yüksəlməsi" mövzusu ilə şahın qarşısında geniş çıxış edir. Sonra onun rejissorluğu ilə hazırlanan "Ana və vətəni", yaxud "İran səadətinin doğuluşu" əsəri göstərilir. Rza şah da tamaşanı izləyir. Həmin vaxt Böyükxanın təklifi ilə teatr sənətinin sürətli inkişafı üçün təcrübəli teatr xadimləri Mehdixan Şəfizadə, Hacıxan Çələbi, İsmayıl Rizvan (Vəkili) Əbülfəz Moeyri, Hüseynqulu Kərimzadə, doktor Rəhim xan Pezeşki, Əkbər Bəradəri, Bağır Hacızadə və digərlərindən ibarət üzvü komissiya yaradılır. Təbriz şəhər rəhbərliyinin göstərişi ilə B.Naxçıvanski rejissor təyin olunur. Komissiyanın işinə ümumi nəzarət Məhəmmədxan Dərgahiyə həvalə edilir. İranın Daxili İşlər Nazirliyi "Şiri Xurşid" tamaşa zalı"nı 1927-ci ilin fevralında qeydiyyatdan keçirir.

Həmin teatrda B.Naxçıvanskinin rejissorluğu ilə hazırlanan ikinci tamaşa – "İcbari təbib" ("Zorən təbib", J.B.Molyer) göstərilir. Səhnə əsəri maraqla qarşılanır. Tamaşa haqqında "Təbriz" qəzetində məlumat dərc olunur.

"Arin Teatr Cəmiyyəti" 1936-cı ildə böyük şair-dramaturq Hüseyn Cavidin məşhur "İblis" faciəsinə müraciət edir. B.Naxçıvaninin quruluş verdiyi tamaşa "İttihad" məktəbinin yoxsul şagirdlərinə maddi kömək məqsədilə göstərilir.

Təəssüf ki, sonradan bu teatrın taleyi uğursuz olur. 1979-cu ildə İranda İslam inqilabı qələbə çaldıqdan sonra truppa dağılır, bina xarabalığa çevrilir.

***

Ümumiyyətlə, B.Naxçıvaninin istər Naxçıvanda, istərsə də Təbrizdə quruluş verdiyi tamaşaların və oynadığı obrazların əsas məqsəd və qayəsi maarifçilik ideyalarının xalq arasında təbliği olmuş, mövzusundan və janrından, təsvir etdiyi dövrdən asılı olmayaraq, zamanın aktual problemlərinə toxunmuş, teatrın ideya, məzmun, üslub baxımından inkişafına çalışmışdır. O, Təbrizdə teatr həvəskarlarını müxtəlif cəmiyyətlərdə birləşdirməklə onların peşəkarlığının artırılması üçün də böyük səy göstərmişdir. Təbrizdə maarif və mədəniyyət sahəsindəki, xüsusilə teatrın inkişafı yolundakı xidmətləri İran dövləti tərəfindən yüksək qiymətləndirilərək "Şiri Xurşid" medalı ilə təltif edilmişdir.

B.Naxçıvanski 1941-ci ildə 70 yaşında Təbrizdə vəfat etmişdir. O, həyatla vidalaşıb əbədiyyətə qovuşandan sonra sənət aləmində saldığı yola yeni izlər düşdü. 1946-cı ildə Təbrizdə Azərbaycan Dövlət Dram Teatrı yaradıldı...

**Əli Qəhrəmanov**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru**

# Bir gün Laçında düşüb yağışa...

Qarabağ deyəndə ilk növbədə ağlıma gələnlər müharibə, Topxana meşəsi, mitinqlər, Qarakənd hadisəsi, Daşaltı, Xocalı, Şuşa, Laçın dəhlizi, Çingiz Mustafayevin kadrları və şəhidlər olur... Uşaq yaddaşıdır yəqin. Bu gün qalib Azərbaycanın vətəndaşı kimi ötən otuz il bir kino lenti kimi keçir gözlərim önündən. Onda hələ uşaq idik və Qarabağ bizim üçün çox uzaq idi. Qarabağlı qohumumuz, qonşumuz da yox idi. İlk tanıdıqlarım Pirşağı qəsəbəsindəki "Qızılqum" sanatoriyası və pioner düşərgələrində Şuşadan, Malıbəylidən məskunlaşan qaçqınlar oldu. Sonra ... sonra yaşımız artdıqca hamımız qarabağlı olduq.



10 il, hətta 5 il əvvəl desəydilər ki, nə vaxtsa sən Şuşaya, Laçına gedəcəksən inanmazdım. İroniyalı zarafat hesab edib bəlkə həmin adamı acılayardım da. Amma bu gün...

Zəng gəldi. İllərdir tanıdığım dostum, rejissor Amil idi. Laçına, "Xalça belə yarandı" adlı sərginin açılış mərasiminə dəvət edirdi. Çox sevindim, dərhal da soruşdum: Laçına gedəcək heyətdə Təranə Vahid də varmı? Jurnalist həmkarımız, istedadlı yazıçı. Axı o hələ işğaldan azad ediləndən bəri öz doğma yurduna getməmişdi. Məlum olur ki, gedən komandaya Təranə də daxildir. Bundan gözəl nə ola bilərdi...

## Biz Laçına gedirik...

Evdə Laçına gedəcəyimi deyirəm. Qızım Elmira deyir ki, əslində, Laçına biz rəssamları aparmalıdırlar ki, yeni-yeni əsərlər çəkək. Ən azı ildə bir dəfə silsilə tablolar üçün. Düşünürəm ki, düz deyir. Laçına yaradıcı səfərlər də təşkil etmək məqamı çatıb artıq. Nəhayət, yola çıxmaq vaxtı yetişir. Mayın 24-ü. Gecə saat 2:00. Danışılan kimi, "İnşaatçılar" metrosu qarşısına yığışırıq. Milli Xalça Muzeyindən Mahiyyə xanım və Əməkdar rəssam Məmmədhüseyn müəllimi görürəm. Məlum olur ki, maşınlar komandalara bölünüb. Mən jurnalistlərlə gedəcəyəm. Həmkarım Həmidəyə zəng vururam. Deyəsən, yatıb qalıb, necə hövlnak cavab verirsə... Az sonra cavabı kimi özünü də hövlnak toplanış məntəqəsinə çatdırır.




Yola düşürük. Zöhrə xanım yenə işini möhkəm tutub. 11 nəfərlik avtobusun bütün yemək azuqəsini gətirib desəm, yanılmaram. Şərif Ağayar əsl bələdçidir. Bakıdan Laçına bütün yolu bizə məlumat verir. Təranə isə sakitdir. Hərdən fikir verirəm. Gözü elə hey yol çəkir.

Biz ənənəvi yolla gedirik Laçına. Belə demək mümkünsə, sovetdən qalma yolla. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarından keçirik. Qubadlıdan keçəndə videolar çəkib dayıdostuma yollayıram. Qubadlıdandır. Qubadlı azad olunanda bizə yaxşı şüyüdlü plov qonaqlığı vermişdi. Xaraba qalmış kəndlər, şəhərlər və quruculuq işləri. Yolboyu Ali Baş Komandan, Prezident İlham Əliyevin xalqa Ermənistanın kapitulyasiya ilə bağlı müraciətini xatırlayıram. Bu məqamda Elxan Qasımovun (Allah rəhmət eləsin) filmi də yadıma düşür. "Biz qayıdacağıq"... Zəngilan yazılan lövhənin yanında düşüb fotolar çəkdiririk. Laçının girişində hamı düşsə də mən düşmürəm. Çünki, hiss edirəm ki, Təranə kövrəlib və onun göz yaşlarına şahidlik etmək istəmirəm nədənsə... Səbəbi də var. Yolda bizim Tahir müəllimi də xatırlamışdım. Düşsəydim, mən də ağlayacaqdım...

Yollar dolanbacdır burada. Bu dolanbac yolların hər döngəsində bir nağıl yatır. Təbiət, yaşıllıqlar, məkanın aurası... Laçın nə gözəldir, İlahi. Hələ Həkəri çayı. Coğrafiya dərsindən yadımdadır adı. Arazın sol qoludur. Laçın, Qubadlı və Zəngilan rayonları ərazisindən axır. Elə ona görə də yolboyu bizi müşayiət edir. Sözlə ifadə edilməyəcək dərəcədə gözəldir Laçın. Yurduna dönmüş insanları, həyətdə oynayan uşaqları görmək isə bir başqa aləmdir. Seyrəngah deyilən yerdə düşüb şəhəri seyr etdikdən sonra gəldiyimiz avtobus bizi Laçın bulvarına aparır...

## Laçının havası sərindir...

Bir sözlə, biz şəhərlilər üçün qış havası. Tədbir də burada keçirilir. Bizdən əvvəl burada dövlət rəsmilərinin, xarici diplomatların iştirakı ilə tədbir olub. Dostumuz Amil Amal onlarla birlikdə olduğundan hələ ki, görüşə bilmirik. Adaşım, Bakı Abadlıq Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Lalə Əliyeva gülərüzlə, sevinc dolu çöhrəsi ilə bizi qarşılayır. Bakıdakından ikiqat sevincli, canfəşanlıqla görüşürük. Buradakı sevinc də bir başqadır. Bulvar Həkəri sahilində yerləşir. Üzərindəki körpünün özü bir gözəllikdir. Foto çəkən kim, bir-birini çağırıb gördüyü ecazkar gözəlliyi göstərən kim... Bu məqamda Həkəriyə balıqların buraxılmasına şahidlik də edirəm.

"Xalça belə yarandı" sərgisinin müəllifi Elnarə xanımı Milli Xalça Muzeyindən tanıyıram. Sərgidə baş verənləri həmkarım Həmidə qələmə aldığı üçün mən bəzi məqamlara diqqət çəkmək istəyirəm.

Azərbaycan Respublikası Prezidentinin Laçın rayonunda Xüsusi Nümayəndəliyi və Bakı Abadlıq Xidmətinin birlikdə təşkilatçılığı ilə reallaşan layihədə əslən laçınlı, Azərbaycan Rəssamlar İttifaqının üzvü Elnarə Rəsulovanın ideya müəllifi olduğu eskizlər və xalçalar, həmçinin şəxsi kolleksiyasındakı qədim xalça nümunələri nümayiş olunur. "Qarabağ atı" (2023), "Çələbi" (2023), "Ərciman" (2023), "Borçalı" (2024) adlı xalçalarda kompozisiyanın əsasını təşkil edən əriş iplərinin aşkar şəkildə görünməsi onlara xüsusi gözəllik qatır.

Elnarə xanımın "Ata vəsiyyəti – oğul zəfəri" xalçası xüsusilə diqqət çəkir. Xalçanın əsas özəlliklərindən biri onun ikitərəfli toxunmasıdır. İpək və yundan toxunan bu sənət əsəri 2 il 4 aya ərsəyə gəlib. Birinci hissədə Ulu öndər Heydər Əliyevin gələcəyin qətiyyətli lideri İlham Əliyevə vəsiyyəti, ikinci hissədə isə artıq tarixi Zəfərlə oğulun ata vəsiyyətini yerinə yetirməsi təsvir olunub. Xalçanın yuxarı hissəsində Ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyev təsvir edilib. Ətrafa şəfəq saçan günəş isə Zəfərimizin müjdəçisidir. Xalçada hər iki hissəni birləşdirən köklü çinar ağacı da var. Bu, Azərbaycanın keçmişi ilə bugününü birləşdirən güclü bağdır və onun üzərindəki xarıbülbül gülü Qarabağın artıq işğaldan azad edildiyinə işarədir.

Sərgidə xalçanın ilkin yaranmasından son mərhələsinə kimi prosesi müşahidə edirik. Diqqətimi alaçıq çəkir. Həmkarım Həmidə ilə alaçığın içinə daxil oluram. Birlikdə foto da edirik və zarafatla deyirəm ki, özümü lap "Qurtuluş Osman" serialının qəhrəmanları kimi hiss etdim. Alaçığın haradan gətirilməsi məni çox maraqlandırdı.

Elnarə xanım deyir ki, "Xalça belə yarandı" sərgisində bizə dəstək olan Milli Yaylaq Festivalının təsisçisi, Cavad Xan Tarix və Mədəniyyət Fondunun vitse-prezidenti Müzadil Həsənova dərin təşəkkürümü bildirirəm. O bizə Gəncədən – Cavad xan yurdundan öz alaçığını təmənnasız olaraq göndərdi.



Onu da deyim ki, alaçıq burada əbəs qurulmayıb. Xalçanın yaranışı prosesini əyani şəkildə göstərərkən alaçığı da vurğulamamaq olmazdı. Ta qədimdən qışlaq-yaylaq köçlərində alaçıqdan həmişə istifadə edilib. Alaçıq qurulduqdan sonra üstü möhkəm keçə ilə örtülürdü. Alaçıq müvəqqəti yaşayış yeri kimi istifadə edilsə də, onun qurulması, xalça-palazla bəzədilməsi xalqımızın estetik zövqündən irəli gəlirdi. Laçında arada yağış da yağır, sərgi çərçivəsində 28 May – Müstəqillik Gününə həsr olunan konsert proqramının aparıcısı Rövşanə Ağasəfqızı media təmsilçiləri və yazarları səhnədən xüsusi salamlayır. Leysan yağış yağır, amma hər kəs yağışın inadına sona qədər tədbiri izləyir. Bu da Laçın sevgisi, Laçının ecazkarlığından yaranan hisslər idi. Hamı şaddır, hamı rəqs edir.

## "Hoçazfilm" – Amilin amalı...

Burada dağ havası, evlərin quruluşu, su və torpağın qoxusu, ağaclar, yağış belə valehedicidir. Sanki yuxuda idik, ya da bu bir neçə saatlıq eyforiya idi. "Hoçazfilm"ə gedən yolda şıdırğı yağışda maşından düşüb şəhəri seyr etməyimizi indi də xatırlayıram. Yəqin başqa yerdə heç maşından əlimizi belə bayıra çıxarmazdıq yağışda. Göz-gözü görmürdü, sözün əsl mənasında.

Qayıdıram əvvələ... Biz sərgini izləməkdə, dostlarla görüşməkdə ikən Laçına səfərimizin səbəbkarı Amil Amal da gəlib çıxır. Hal-əhval tuturuq. Deyir ki, qonaqları "Hoçazfilm"lə tanışlığa aparmışdım. Biz də studiyanı tez görmək istədiyimizi deyirik. Yağış da bir yağır ki, necə deyərlər, tut ucundan göyə çıx. İki maşına birtəhər sığışıb yollanırıq "Hoçazfilm"ə. "Hocazfilm"ə qalxan yol gəldiyimiz yoldan da sərt eniş-yoxuşlu və dolanbac imiş. Kinoittifaqdan olan gənc xanım əməkdaşlardan biri maşın sərt döngələri keçdikcə qışqırır və bərk-bərk məndən tutur. Amil isə bizi sakitləşdirməyə çalışır. Deyir gündə neçə dəfə gəlib-gedir bu yolu, üstəlik də yolda üzbəüz maşınlarla rastlaşırıq. Deməli əsas yollardan biridir və qorxmağa ehtiyac yoxdur.

"Hoçazfilm"in qarşısına çatırıq. Hərdən mənə elə gəlir ki, bu studiya Amilin əsas amallarından biridir. Laçın işğalda olanda onunla o qədər bu barədə danışmışıq ki... Laçın azad olunandan sonra orada kinostudiya olmasını arzulayıram, deyirdi hər zaman. Budur, həmin studiyadayıq. Amil deyir ki, ayda bəzən 500 ziyarətçi gəlir bura.

Bizdən bir az əvvəl studiyanı Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev Laçında təşkil olunan tədbir (COP29 – UN Climate Change Conference) çərçivəsində diplomatik korpusun nümayəndələri ilə birlikdə ziyarət edib. H.Hacıyev Azərbaycanın xarici siyasətində müasir milli filmlərin əhəmiyyətini xüsusi vurğulayaraq, "Hoçazfilm"in məhz sərhəd bölgəsində – Laçın şəhərində yaradılmasının vacibliyini xarici diplomatların diqqətinə çatdırıb.

Ötən il studiyanın açılışında Prezident İlham Əliyev iştirak edib. Studiya iki inzibati binadan və bir çəkiliş pavilyonundan ibarətdir. Studiyanın adı Laçın rayonunun əsas rəmzlərindən sayılan Hoçaz qayalıqlarının adından götürülüb. Studiya Laçın və ümumilikdə Qarabağ regionunun işğal və işğaldan sonrakı dövrlərinin salnaməsini yaratmaqda regional audiovizual mərkəz kimi fəaliyyət göstərəcək. Eyni zamanda çəkiliş məqsədilə regiona gələn yerli və xarici film istehsalçılarına bölgənin zəngin təbiəti, imkanları ilə bağlı bələdçilik və lokasiya xidmətləri göstərəcək, onları müvafiq avadanlıqla təmin edəcək.

Çoxşaxəli yaradıcılıq məkanı olan "Hoçazfilm"in perspektiv fəaliyyət istiqamətləri çox genişdir. Buraya Qarabağ regionunun genişmiqyaslı təbliğatı ilə bağlı layihələrin həyata keçirilməsi, bölgədə mədəni-kütləvi tədbirlərin işıqlandırılması, Laçında yenidənqurma işlərinin, regionun milli brendlərinin və yerli məhsulların təşviqi, kinematoqrafiya, rəsm kursları və müsabiqələrinin təşkili daxildir. Pavilyon texniki təchizat, o cümlədən səs, işıq izolyasiyası baxımından beynəlxalq standartlara uyğundur. "Hoçazfilm"in ilk layihəsi Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri, əslən laçınlı Xosrov bəy Sultanovun həyat və fəaliyyətindən bəhs edən "Qarabağ qubernatoru" bədii-sənədli filmidir.

Pavilyondakı helikopter, təyyarə mənə çox tanışdır. Bunlar Bakıda, "Azərbaycanfilm" kinostudiyasının dekorasiya sexində hazırlanıb. Studiyanın içində helikopter, təyyarəyə minirik. İnanıram ki, yaxın günlərdə biz "Hoçazfilm"lə bağlı yeni xəbərlərlə kinosevərləri müjdələyəcəyik.

Onu da qeyd edim ki, bir müddət əvvəl may ayının əvvəlində "Arılar və adamlar" tammetrajlı bədii film üçün Laçın rayonunda məkan seçimlərinə start verilib. Film Azərbaycan Respublikasının Kino Agentliyinin (ARKA) keçirdiyi film layihələri müsabiqəsinin qalibi, "SFN Production" və "Hoçazfilm"in birgə istehsalıdır. May ayında bu studiyada "Böyüklərsiz biznes-klass" filminin çəkilişləri də baş tutub.

***

..."Hoçazfilm"i ziyarətdən sonra artıq Laçından ayrılıb Bakıya qayıdırıq. Çox məqamları yazmadım. Yağışlı günün təəssüratları ilə geri qayıdırıq. Şərif Ağayar isə geri qayıdanda da bələdçilik edirdi. O həmişə açıq danışandır. Deyəsən, Cəlil Cavanşir idi, ondan soruşdu ki, gəlib burada qala bilərsən... Cavabı dəqiq yadımdadır. Dedi ki, maliyyə dəstəyi olsa, bəlkə də üç il Laçında oturub qayıdış hekayələri yaza bilər. Təranə Vahidin Mişni kəndi isə uzaqda olduğu üçün gedə bilmədik. Yəqin bir gün onlara da qonaq gedərik...

**Lalə Azəri**

## Xatirə təqvimi — 15–18 iyun

### Azərbaycan

**15 iyun 1918** – Bəstəkar, Xalq artisti Hacı Dadaş oğlu Xanməmmədov (1918 – 7.4. 2005) Dərbənddə doğulub. "Bir dəqiqə" operettasının, populyar mahnıların ("Getmə, amandı", "Qurban olduğum" və s.) müəllifidir. Filarmoniyanın direktoru, Dövlət Mahnı və Rəqs Ansamblının bədii rəhbəri olub.

**15 iyun 1920** – Xalq Maarif Komissarlığının tərkibində Muzey-ekskursiya yarımşöbəsi və onun nəzdində "Doğma diyarın tədris muzeyi" yaradılıb. Muzeyin bazasını 1919-cu ildə yaradılmış "İstiqlal" muzeyinin materialları təşkil edirdi. 1920-ci ilin oktyabrında muzey Azərbaycan Dövlət Muzeyi (indiki Milli Azərbaycan Tarixi Muzeyi) adlandırıldı.

**15 iyun 1924** – Xalq şairi Hüseyn Arif (Hüseynzadə Hüseyn Camal oğlu; 1924 – 14.9.1992) Qazax rayonunda doğulub. "Bahar gələndə", "Söylə, yadındamı?", "Qocalan deyiləm" və s. kitabların müəllifidir. Azərbaycan Aşıqlar Birliyinin yaradıcısı və rəhbəri (1984–1992) olub.

**15 iyun 1933** – Şair Zülfüqar Qodmanlı (Zülfüqar Mənsur oğlu Əliyev; 1933–1998) Masallı rayonunun Qodman kəndində anadan olub.

**15 iyun 1934** – Şair, ədəbiyyatşünas Hüseyn Kürdoğlu (Hüseyn Həsən oğlu Alışanov; 1934–2003) Laçın rayonunun Mollaməhmədli kəndində doğulub.

**15 iyun 1945** – Xalq artisti Amaliya Əliş qızı Pənahova (1945 – 8.11.2018) Gəncədə doğulub. 1964-cü ildən Akademik Milli Dram Teatrında çalışıb, səhnə əsərlərində yaddaqalan obrazlar yaradıb. 1992-ci ildə Bakı Bələdiyyə Teatrını yaradıb. "Arxadan vurulan zərbə", "Qərib cinlər diyarında", "Babək", "Gözlə məni", "Cavad xan" və s. filmlərdə çəkilib. Milli Məclisin deputatı (2000–2005), Mədəniyyət və İncəsənət Universitetinin professoru olub.

**16 iyun 1888** – Xalq artisti, teatr xadimi Hacıağa Mütəllib oğlu Abbasov (1888 – 7.5.1975) Bakının Maştağa kəndində doğulub. 1921-ci ildən özünün yaratdığı Tənqid-Təbliğ Teatrına, daha sonra Akademik Dram Teatrına (1927–1929), Bakı Teatr Texnikumuna (1929–1937) rəhbərlik edib. "Ağa Məhəmməd şah Qacar və Molla Pənah Vaqif", "Sabirin məhkəməsi" və s. pyeslərin müəllifidir.

**16 iyun 1939** – Şair, yazıçı, ədəbiyyatşünas, Əməkdar incəsənət xadimi, professor Rəfiq Zəka Xəndan (1939 – 7.1.1999) anadan olub. "Çağlayan", "Könlümün yadigarı", "Axıb gedən günlərimiz", "Azərbaycanın səsi" və s. kitabların müəllifidir.

**17 iyun 1926** – Xalq rəssamı Elbəy Həsən oğlu Rzaquliyev (1926 – 15.9.2007) anadan olub. Əsərləri bir sıra xarici ölkələrdə sərgilənib. "Qara daşlar", "Telefonçu qız", "Arşın mal alan" (1965), "Bakıda küləklər əsir", "Gün keçdi", "Arxadan vurulan zərbə" və s. filmlərin rəssamı olub.

**17 iyun 2020** – Xalq rəssamı Mayis Əlişir oğlu Ağabəyov (1.5.1941 – 2020) vəfat edib. 20-dən çox filmin ("Babək", "Nizami", "Qətl günü", "Özgə vaxt" və s.) quruluşçu rəssamı olub.

**18 iyun 1917** – Görkəmli bəstəkar, pedaqoq, Xalq artisti Əhməd Cövdət İsmayıl oğlu Hacıyev (1917 – 18.1.1994) anadan olub. Azərbaycanda simfonik musiqinin yaradıcılarından biridir, səkkiz simfoniya, orkestr və xor üçün əsərlər bəstələyib. Qara Qarayevlə birlikdə yazdığı "Vətən" operasına görə SSRİ Dövlət mükafatına layiq görülüb.

**18 iyun 2002** – Naxçıvanda Bəhruz Kəngərli Muzeyinin açılış mərasimi keçirilib. Prezident Heydər Əliyev mərasimdə iştirak edib.

**18 iyun 2010** – Əməkdar incəsənət xadimi, qoboy ifaçısı, pedaqoq Azər Canbaxış oğlu Abdullayev (25.2.1929 – 2010) vəfat edib. Azərbaycan Dövlət Konservatoriyasında (indiki BMA) Nəfəs və zərb alətləri kafedrasının müdiri olub.

### Dünya

**15 iyun 1843** – Norveç bəstəkarı, dirijor Edvard Qriq (Edvard Hagerup Grieg; 1843–1907) anadan olub. "Per Günt" süitası, 600-dən çox mahnı və romansın müəllifidir.

**15 iyun 1946** – Məşhur yunan müğənnisi Demis Russos (Artemios Ventouris Roussos; 1946 – 25.1.2015) Misirin İsgəndəriyyə şəhərində doğulub.

**16 iyun 1313** – İntibah dövrünün görkəmli italyan yazıçısı, şair Covanni Bokkaçço (Giovanni Boccaccio; 1313–1375) anadan olub. Povest və hekayələr toplusu olan "Dekameron" əsərinin müəllifidir.

**16 iyun 1754** – Başqırd şairi Salavat Yulayev (1754–1800) anadan olub. Ədəbi yaradıcılığı ilə yanaşı, rus üsyançısı Yemelyan Puqaçovun silahdaşı kimi tarixə düşüb.

**16 iyun 1937** – Amerika yazıçısı, ssenarist və dramaturq Erik Siqal (Erich Wolf Segal; 1937–2010) anadan olub.

**17 iyun 1818** – Fransız bəstəkarı, dirijor və pedaqoq Şarl Quno (Charles François Gounod; 1818–1893) anadan olub. "Faust", "Romeo və Cülyetta" operalarının müəllifidir.

**17 iyun 1882** – Rus bəstəkarı, dirijor, pianoçu İqor Stravinski (1882–1971) anadan olub. "Müqəddəs bahar", "Səməndər quşu" baletlərinin, "Bülbül" operasının müəllifidir.

**18 iyun 1936** – Rus-sovet yazıçısı Maksim Qorki (Aleksey Maksimoviç Peşkov; 28.3.1868 – 1936) vəfat edib. Əsərləri: "Ana", "Foma Qordeyev", "Artamonovların işi", "Klim Samqinin həyatı" (romanlar); "Meşşanlar", "Həyatın dibində", "Yeqor Bulıçev və başqaları", "Vassa Jeleznova" (pyeslər) və s.

**18 iyun 1935** – SSRİ Xalq artisti, məşhur aktyor Yuri Solomin (1935 – 11.1.2024) anadan olub. Filmləri: "Əlahəzrətin yavəri", "SİTA bəyan etməyə müvəkkil olunmuşdur" və s. Otuz ildən artıq Dövlət Akademik Malı Teatrın bədii rəhbəri olub.

**Hazırladı: V.Orxan**

## "Azərbaycanın zəngin mədəniyyəti var"

### Ulu öndərin fikir və aforizmlərindən ibarət kitab

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon MKS-nin M.Ş.Vazeh adına Mərkəzi Kitabxanası və "Azərbaycan Yazıçı Qadınlar Cəmiyyəti" İctimai Birliyinin birgə təşkilatçılığı ilə "Azərbaycanın zəngin mədəniyyəti var" adlı kitab nəşr olunub.

Kitabxanadan bildirilib ki, nəşr Ümummilli lider Heydər Əliyevin Azərbaycanın rəhbərliyinə gəlməsinin (1969) 55 illiyinə ithaf olunub.

18 bölmədən ibarət kitabda Heydər Əliyevin mədəniyyət və incəsənət, yaradıcı ziyalılar, teatr, kino, musiqi, təsviri incəsənət və rəssamlıq, muzey, tarixi-memarlıq abidələri, kitab nəşri və kitabxana, milli adət-ənənələr, ədəbi-mədəni irs haqqında fikirləri və aforizmləri toplanıb.

Kitabın tərtibçisi, redaktoru və ön sözün müəllifi tarix üzrə fəlsəfə doktoru Lətifə Məmmədovadır. Nəşrin məsləhətçiləri yazıçı-publisist Nüşabə Məmmədli, tarix elmləri doktoru, professor Fuad Məmmədov və sənətşünaslıq üzrə elmlər doktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramovadır.

## "Zəngəzur. Uzaq keçmişdən günümüzədək"

İyunun 11-də AMEA-nın Mərkəzi Elmi Kitabxanasında Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcmasının üzvü, şair-publisist, tarix üzrə fəlsəfə doktoru Musa Urudun (Quliyev) "Zəngəzur. Uzaq keçmişdən günümüzədək" monoqrafiyasının təqdimatı keçirilib.

Mərasimdə çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli geniş oxucu kütləsi üçün nəzərdə tutulan kitabın elmi və siyasi baxımdan əhəmiyyətini diqqətə çatdırıb. Prezident İlham Əliyevin 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşünü xatırladan İsa Həbibbəyli dövlət başçısının həmin görüşdə bu istiqamətdə qarşıda duran vəzifələri müəyyən etdiyini vurğulayıb.

Dilçilik İnstitutunun direktoru professor Nadir Məmmədli bölgədəki 838 toponimin ətraflı izahı verilən kitabın zəngəzurlular üçün məlhəm olduğunu bildirib. Qeyd edib ki, nəşrdə tarixi mənbələr, sənədlər, elmi ədəbiyyat və xatirələr, eləcə də yerli sakinlərin məlumatları əsasında Zəngəzurdakı toponimlərin bölgənin mədəni-etnoqrafik mənzərəsi də ətraflı tədqiq edilib.

Çıxış edənlər kitabın rus dilində də nəşr olunmasının əhəmiyyətindən, xarici ölkələrdə təbliğinin vacibliyindən danışıblar.

Sonda çıxış edən Musa Urud kitabın ərsəyə gəlməsindən söz açıb, tədbirin təşkilatçı və iştirakçılarına təşəkkür edib.

№44 (2109)
14 iyun 2024
www.medeniyyet.az

# "Sevgi Meksikadır"

## Meksikalı musiqiçilərin Azərbaycan tamaşaçılarına sürprizi də oldu

İyunun 11-də Beynəlxalq Muğam Mərkəzində "Sevgi Meksikadır" adlı konsert proqramı təqdim olundu. Proqram Meksikanın Azərbaycandakı Səfirliyinin təşkilatçılığı, Azərbaycan Mədəniyyət Nazirliyi, Beynəlxalq Muğam Mərkəzi və Gəncə Dövlət Filarmoniyasının dəstəyi ilə gerçəkləşdi.

Meksikanın Azərbaycandakı səfiri Mariya Viktoriya Romero Kabalyero çıxış edərək iki ölkənin qədim tarixə, dövlətçilik ənənələrinə malik olduğunu dedi. Meksikalı ifaçıların Bakıdakı konsertinin maraqlı olacağını qeyd edən diplomat tamaşaçılara xoş seyrlər arzuladı.

Millət vəkili, Azərbaycan-Meksika parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Jalə Əliyeva həm ikitərəfli səviyyədə, həm də beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimiz arasında əməkdaşlığın səmərəli şəkildə davam etdiyini bildirdi. İki ölkə arasında dostluq münasibətlərinin təşəkkül tapdığını, eləcə də parlamentlər səviyyəsində fəal əməkdaşlığın olduğunu qeyd edən millət vəkili mədəni tədbirlərin də bu xüsusda əhəmiyyətini vurğuladı.



Daha sonra meksikalı tenor Luis İtzkoatl və pianoçu Maurisio Duran səhnəyə çıxdılar. Diqqətə çatdırdılar ki, əsas amalları Meksikanın musiqi mədəniyyətini paylaşmaq üçün dünya ölkələrində konsertlər vermək, Meksika musiqisini, bəstəkarlarını və poeziyasını təbliğ etməkdir.

İfaçılar maraqlı proqramla çıxış etdilər. Proqrama Meksikanın milli vokal musiqi nümunələri və gənc bəstəkarlarının əsərləri daxil idi.

Konsertin sonunda meksikalı musiqiçilərin Azərbaycan tamaşaçılarına sürprizi də oldu. Unudulmaz Müslüm Maqomayevin "Azərbaycan" mahnısının səslənməsi sürəkli alqışlarla qarşılandı.

**Lalə Azəri**

# Azərbaycanlı tələbə dirijor Vyanada orkestr pultu arxasında

Dünyanın nüfuzlu konservatoriyaları sırasında yer alan Vyana Musiqi və Səhnə Sənətləri Universitetinin Orkestr dirijorluğu və Opera müşayiəti fakültələrinin tələbəsi Tamilla Sadıqbəyli növbəti səhnə uğurunu qeyd edib.



T.Sadıqbəylinin dirijorluğu ilə Vyana Konsert Cəmiyyəti (Wiener Konzertvereinigung) Orkestri şəhərdəki "Konzerthaus"un Motsart zalında çıxış edib.

Konsertdə xarici bəstəkarların əsərləri ilə yanaşı, görkəmli Azərbaycan bəstəkarı Qara Qarayevin "Yeddi gözəl" baletindən "Vals" da ifa olunub.

Konsertdən əvvəl tamaşaçılara Qara Qarayevin yaradıcılığı, eləcə də "Yeddi gözəl" baleti haqqında qısa məlumat verən gənc dirijor bu baletdən olan valsın Azərbaycan musiqisevərləri üçün əhəmiyyətindən danışıb. O qeyd edib ki, avstriyalılar üçün Yohann Ştrausun "Mavi Dunay" valsı nə qədər doğma və seviləndirsə, azərbaycanlılar da bu valsı o qədər sevirlər.

Proqramda "Yeddi gözəl" baletindən gözəllərin rəqsləri, eləcə də "Aişənin rəqsi" də təqdim olunub. Avropa bəstəkarlarından Karl Mariya fon Veberin "Klarnet və orkestr üçün konsert" və Jorj Bizenin "Karmen" operasından süita da ifa edilib.

Qeyd edək ki, hələ tələbə olsa da, müxtəlif orkestrlər T.Sadıqbəylinin peşəkarlığını nəzərə alaraq, onu konsertlərdə dirijor pultunda yer almağa dəvət edirlər.

# Ölkəmiz Annecy animasiya festivalında təmsil olunur



Dünyanın ən böyük animasiya festivalı olan Annecy Beynəlxalq Animasiya Film Festivalı (Fransa) bu il 9 –15 tarixlərində keçirilir.

Festivalda Türk Animasiya Assosiasiyası (ATA) və Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY müştərək stendlə iştirak edir.

Stenddə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanın animasiya məhsulları, layihələri, festivalları və s. barədə məlumatlar təqdim olunur.

Layihə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Türkmənistanın Mədəniyyət Nazirliyi və TÜRKSOY-un dəstəyi ilə kreativ sənayenin inkişafı üzrə "Yaradıcı Azərbaycan" proqramı çərçivəsində həyata keçirilir.

"Animation of Turkic Countries 2024" (Türk Dövlətlərinin Animasiyası – 2024) kataloqu da stenddə nümayiş olunan məhsullar sırasındadır. Kataloqa daxil olan 90-dan çox layihədən 50-si kataloqun şərtlərinə uyğun hesab edilib, onlardan 5-i hazırlıq mərhələsində olan tammetrajlı filmlər, 11-i hazırlıq mərhələsində olan qısametrajlı filmlər, 8-i hazırlıq mərhələsində olan seriallar, 14-ü yayımlanmış qısametrajlı filmlər, 12-si yayımlanmış seriallardır.

Ölkəmizi Annecy Festivalında Azərbaycan Animasiya Assosiasiyasının üzvləri Elçin Hami Axundov, Nəzrin Ağamalıyeva, Oqtay Yusibov, Rəşid Ağamalıyev və Şahin Əliyev təmsil edir.

Festivalda animasiya rejissoru Rəvan Muradov (Crambone Inventive League) da iştirak edir. Onun festivalda iştirakı 6-cı ANİMAFİLM festivalının "The Half – "Birdən ölsək" filmi ilə "Ən yaxşı Azərbaycan qısametrajlı animasiya filmi" mükafatını qazanması sayəsində mümkün olub.

# Bişkekdə kinofestival keçirilir

11-15 iyun tarixlərində II Bişkek Beynəlxalq Kinofestivalı keçirilir. Bu il festival Qara-Qırğız Muxtar Vilayətinin yaranmasının 100 illiyinə həsr olunub. 1936-cı ildə muxtariyyətin əsasında Qırğızıstan SSR – indiki respublika yaranıb.

Bişkekdəki Toktoqul Satılqanov adına Milli Filarmoniyada keçirilən açılış tədbirində Qırğızıstan Nazirlər Kabinetinin sədr müavini Edil Baysalov, digər rəsmilər, MDB və digər ölkələri təmsil edən kino xadimləri iştirak ediblər.

Edil Baysalov bildirib ki, festival ənənəyə çevriləcək. Festivalın müsabiqə proqramında 30-dan çox filmin göstərilməsi nəzərdə tutulub. Tədbirlər sırasına ustad dərsləri, mükafat fondu olan pitçinqin təşkili, "retrospektiv" nümayiş, panel diskussiyaları da daxildir.

# Türkiyədə tanınmış pianoçumuzun konsertləri

Türkiyədə yaşayan tanınmış azərbaycanlı pianoçu, Əməkdar artist İslam Manafov Ankarada konsert proqramı ilə çıxış edib.




CSO Ada Ankara zalının səhnəsində gerçəkləşən konsertdə Y.S.Bax, S.Prokofyev, F.Şopen, M.Musorqski, eləcə də Qara Qarayev və digər görkəmli bəstəkarların əsərləri səslənib.

Virtuoz pianoçunun çıxışı gurultulu alqışlarla qarşılanıb.

İslam Manafovun növbəti konserti iyunun 13-də Eskişehirdə keçirilib. Pianoçu eyni proqramla şəhər bələdiyyəsinin İncəsənət və Mədəniyyət Sarayının səhnəsində çıxış edib.

# Ən yaxşı turizm iqtisadiyyatına malik ölkələr

Dünya İqtisadi Forumunun dərc etdiyi hesabatda 2024-cü ildə ən yaxşı turizm iqtisadiyyatına malik ölkələrin siyahısına da yer verilib.

Səyahət və turizmin inkişafı indeksi üzrə müəyyən olunan ölkələr siyahısında ilk onluqda Avropadan 6 ölkə var.

Siyahıya isə ABŞ başçılıq edir. Ondan sonra ilk onluğa daxil olan ölkələr İspaniya, Yaponiya, Fransa, Avstraliya, Almaniya, Böyük Britaniya, Çin, İtaliya və İsveçrədir.

İndeksdə ölkələrin turizm sektorlarına diqqət yetirilib, hava limanları, quru nəqliyyatı və limanlar, təbii və mədəni sərvətlər, sabitlik və təhlükəsizlik, qiymət rəqabəti və destinasiyaların turizmə açıqlığı kimi amillər də nəzərə alınıb.

Dünya İqtisadi Forumunun hesabatında turizm sənayesini gözləyən problemlərə də toxunulub. Ən böyük problemlər kimi işçi çatışmazlığı, uçuş marşrutlarının tələbi ödəyə bilməməsi və yüksək inflyasiya göstərilib.

# 75 dərəcə isti...

## Qumun üzərində yumurta bişib

Çinin Sincan Uyğur Muxtar Rayonunda havanın temperaturu rekord səviyyəyə – 75 dərəcəyə çatıb. Bu göstərici iyunun 11-də muxtar rayonun Turfan dairəsi ərazisindəki "Alovlu dağ" turizm məntəqəsində də qeydə alınıb.



Bölgədə yay günləri havanın hərarəti 40 dərəcədən aşağı olmur. Bununla belə, Çinin ən isti yerlərindən olan Alovlu dağda quraşdırılmış dünyanın ən hündür termometri (12 metr) yer səthindəki real hərarəti – 75 dərəcəni göstərib. Turistlər qumun üzərində istidən bişən yumurtalardan da yeyiblər.

Qeyd edək ki, çökəkdə yerləşən və "Alov vahəsi" kimi tanınan Turfan hövzəsi təkcə Çində deyil, dünyada ən isti və ən quraq iqlimə malik bölgə kimi tanınır.

# "Yaşıllar" Avropada niyə geriləyir?

Avropa Parlamentinə (AP) iyunun 9-da keçirilən seçkilərin nəticələri "Yaşıllar"ın – ətraf mühitin qorunması və iqlim dəyişikliyi problemlərini daha çox önə çəkən partiyaların mövqelərinin zəifliyini göstərir.

Seçkilərdə Avropa Komissiyasının (AK) rəhbəri Ursula fon der Lyayenin də təmsil olunduğu Avropa Xalq Partiyası birinci olub. Partiya 720 yerdən 189-unu alacaq və bununla da AP-nin hazırkı tərkibi ilə müqayisədə mövqeyini yaxşılaşdıracaq.

İkinci yerdə sosialistlər fraksiyası (135 mandat), üçüncü yerdə liberallar (80 mandat) qərar tutub.

Mötədil sağçılar qrupu 72 mandatla dördüncü yerdədir. Fransanın "Milli Birlik" partiyasının da daxil olduğu "Şəxsiyyət və Demokratiya" fraksiyası – radikal sağçılar isə 58 mandatla beşincidir.

"Yaşıllar" AP-də cəmi 52 mandatla təmsil olunacaq. 98 deputat isə heç bir fraksiyanı təmsil etməyəcək. Fraksiyasız deputatlar arasında "Almaniya üçün Alternativ" millətçi partiyasının təmsilçiləri də var.

Xatırladaq ki, Avropa İttifaqının ali məşvərət orqanı olan Avropa Parlamentinə seçkilər 27 ölkədə keçirilib.

"Yaşıllar"ın Avropada geriləməsinin bir səbəbi kimi onların qeyri-populyar ideyaları göstərilir. Məsələn, 2035-ci ildən Aİ ölkələrində daxili yanma mühərrikli (benzin və dizellə işləyən) avtomobillərin qadağan olunması bunlardan biridir. "Yaşıl" partiyaların dəstəklədiyi bu təşəbbüs Avropanın ən böyük avtomobil istehsalçısı olan Almaniyada həm sənayeçilər, həm də ümumilikdə əhali arasında etiraz doğurur. Təxminlərə görə, AP-yə seçkilərdə "Yaşıllar"ın alman seçicilər arasında xüsusilə zəif nəticə göstərməsində bu amilin də rolu olub.

# Tarixdə bu gün

## Olaylar, faktlar (15 – 18 iyun)



### Xronoqraf

**17 iyun** "Dünya səhralaşma və quraqlıqla mübarizə günü"dür (World Day to Combat Desertification and Drought). BMT Baş Assambleyasının 30 yanvar 1995-ci il tarixli qətnaməsi ilə təsis edilib.

**18 iyun** Azərbaycanda İnsan Hüquqları Günüdür. 1998-ci il iyunun 18-də "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" qəbul olunub. Prezident İlham Əliyevin sərəncamı (2007) ilə bu tarix "İnsan hüquqları günü" kimi təsis olunub.

### 635 il əvvəl...

**15 iyun 1389-cu ildə** Kosovo düzündə (indiki Kosovonun paytaxtı Priştina yaxınlığında) baş verən tarixi döyüşdə Sultan Muradın başçılığı ilə Osmanlı qoşunları serb knyazı Lazarın ordusunu məğlub edib. Döyüşdən sonra Sultan Murad serb Miloş Obiliç tərəfindən sui-qəsdlə öldürülsə də, bu qələbəyət Osmanlının Balkanlarda beş əsr sürən hökmranlığının başlanğıcı oldu.

### 209 il əvvəl...



**18 iyun 1815-ci ildə** Napoleon ordusunun tamamilə darmadağın edilməsi ilə nəticələnən Vaterloo (Belçika) döyüşü olub. Müttəfiqlər tərəfindən sürgünə göndərildiyi Elba adasından qaçaraq Fransaya gələn ("100 günlük hakimiyyət") və ordusunu yenidən toplayaraq Belçika üzərinə hücuma keçən Napoleon ingilis-holland-alman qüvvələri tərəfindən məğlub edilib. Napoleon İngiltərənin nəzarətində olan Müqəddəs Yelena adasına ömürlük sürgün olunub.

### 106 il əvvəl...



**16 iyun 1918-ci ildə** Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası və müvəqqəti hökuməti Tiflisdən Gəncəyə köçüb. Cümhuriyyətin keçici paytaxtı elan edilən Gəncə Nuru paşanın başçılıq etdiyi türk (Osmanlı) qoşunlarının nəzarətində idi.

**17 iyun 1918-ci ildə** Azərbaycan Xalq Cümhuriyyətinin Səhiyyə Nazirliyi təşkil olunub, Xudadat bəy Rəfibəyli səhiyyə naziri təyin edilib. Prezident Heydər Əliyevin 4 iyun 2001-ci il imzaladığı sərəncamla 17 iyun Azərbaycanda tibb işçilərinin peşə bayramı günü elan olunub.

### 80 il əvvəl...

**17 iyun 1944-cü ildə** Danimarka ilə İslandiya arasında uniya (ittifaq) sona çatıb. Hər iki ölkədə keçirilən referendum nəticəsində İslandiya müstəqil respublika elan olunub. Buzlaqlar ölkəsi İslandiya (ərazisi 103 min kvadrat kilometr) XIV əsrin sonundan Danimarkanın hökmranlığı altında idi. Uniya isə 1918-ci ildə yaradılmışdı.

### 31 il əvvəl...

**15 iyun 1993-cü ildə** Milli Məclisin iclasında təşkilati məsələyə baxılıb. Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyev parlamentin sədri seçilib. Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın müstəqillik tarixində yeni dövrün başlanğıcı oldu. 1997-ci ildə (27 iyun) Milli Məclis 15 iyunu Milli Qurtuluş Günü elan etdi.

### 23 il əvvəl...

**18 iyun 2001-ci ildə** Prezident Heydər Əliyev "Dövlət dilinin işlənməsinin təkmilləşdirilməsi haqqında" fərman imzalayıb. Fərmanla 2001-ci il avqustun 1-dən ölkədə Azərbaycan dilində olan bütün çap məhsulları latın qrafikalı əlifbaya keçib, bütün rəsmi yazışma və sənədləşmələr latın qrafikasında aparılmağa başlanıb.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 1380
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641